# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

2 fevral 2023-ci il

№ 050 (3618)
Qiymәti 50 qәpik


## Gün-Xəbər



### Prezident səfirliyimizdə törədilən terror aktından danışdı

**Prezident İlham Əliyev Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktının hazırda Azərbaycan tərəfindən hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırıb.**

Bu barədə dövlət başçısı fevralın 1-də Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən deyib.

Qeyd edək ki, Prezident İlham Əliyev fevralın 1-də Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.



### İran Amerikanın "qara siyahı"sında: SEPAH-la bağlı yeni qərar

**ABŞ İranın yeddi şirkətini sanksiyalar siyahısına əlavə edib. Bu şirkətlər Rusiyanın Ukraynaya qarşı müharibəsində istifadə etdiyi pilotsuz təyyarələrin istehsalı ilə məşğuldur.**

Bu barədə ABŞ-ın Ticarət Departamenti məlumat yayıb. Məlumatda "Şahid" dronlarının istehsalı ilə məşğul olan şirkətlərlə yanaşı, "İran İslam İnqilabı Keşikçiləri Korpusu"na (SEPAH) bağlı qurumların olduğu da bildirilib. Ticarət Nazirliyinin açıqlamasında İranın pilotsuz təyyarələrinin Ukraynada istifadə edilməsi üçün Rusiyaya verilməsinin ABŞ-ın milli təhlükəsizliyi və xarici siyasət maraqlarına zidd olduğu vurğulanıb.

# Bir ailənin nəqliyyat xərci 12 manat artdı

*"Hökumət yanvar ayından etibarən minimum əmək haqqını 45 manat artırıb. Dünən isə Tarif Şurasının qərarı ilə nəqliyyatda gediş qiyməti 33,33% artırılıb. Yəni fevral ayından başlayaraq ailədə 1 nəfərin nəqliyyat xərci ən azı 6 manat (0,4 AZN/gediş x 30 gün x 2 gediş) artacaq. Orta statistik ailənin 4 nəfərdən ibarət olduğunu və ən azı 2 nəfərin gündəlik nəqliyyatdan istifadə etdiyini nəzərə alsaq, bu halda ailənin nəqliyyat xərcinin ən azı 12 manat artdığını görmək olar".* Bunu iqtisadçı Samir Əliyev bildirib. *"Yəni hökumət sizə 45 manat verib əvəzində 12 manatını (26,7%-ni) geri alır. Gündə 4 nəqliyyatdan istifadə edən ailələrdə, o cümlədən Xırdalan və Sumqayıt əhalisində isə bu xərc 2 dəfə artacaq",* - o, əlavə edib. İqtisadçının sözlərinə görə, fərdi sahibkarlar onsuz da minimum əmək haqqının artımında zərbə almışdılar: *"Onların vergisi, sosial ödənişləri və tibbi sığorta haqları artmışdı. İndi onların nəqliyyat xərcləri də artdı".*




## Azərbaycanın əsas düşmənləri:



**Ermənistan, rüşvət və korrupsiyadır**

Səh.3

## Ssenarist və rejissorların məqsədləri nədir?



**«Bəxt üzüyü»nə baxın öyrənin**

Səh. 7

## Dövlət büdcəsini niyə dağıdırlar?



**Gəncə sakini hədələndiyini deyir**

Səh. 5

2 fevral 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru





## Prezident: "Xeyli vaxt çəksə də, İran polisi tədbir görməyib"

**Prezident İlham Əliyev bildirib ki, Tehranda terror hadisəsi prosesi xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri hər hansı ciddi tədbir görməyib.**

Bu barədə dövlət başçısı fevralın 1-də Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən danışıb.

Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğulayıb. Dövlət başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırıb. Prezident İlham Əliyev vurğulayıb ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib.

# Ermənistanın iddiası niyə rədd edildi?

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin çağırılması ilə bağlı müraciət etmişdi. Məhz bu müraciəti əsasında Beynəlxalq Məhkəmədə vacib məsələlərə baxılıb. Bu ilk növbədə ölkəmizin haqlı tərəf olduğunu göstərən mühüm amildir. Məhkəmədə müzakirələr, müşahidələr zamanı açıq şəkildə sübut edildi ki, erməni tərəfinin heç bir arqumenti qəbul edilməyib.




Bunu Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib.

Onun fikrincə, Ermənistan tərəfindən iddia edilirdi ki, guya Qarabağda 120 min erməni "blokada" şəraitində yaşayır: *"Əslində ilk yalan məhz bu fakt idi. Çünki orada bu saydan qat-qat az erməni əsilli insan yaşayır. Prezident İlham Əliyev də ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı bildirmişdi ki, Laçın yolu mülki və humanitar məqsədlər üçün açıqdır. Hətta bu yoldan indiyə qədər hər iki tərəfə hərəkət etmiş avtomobillərin sayı da açıqlandı. Sözsüz ki, ölkə başçısının bu arqumenti olduqca təsirli idi"*.

Deputat bildirib ki, Azərbaycan tərəfi BƏM-də haqlı tələblərlə çıxış edib: *"Bu tələblər onunla bağlı idi ki, Laçın yolundan ermənilər indiyə kimi minaların və silah-sursatın daşınması üçün istifadə edib. Azərbaycan tərəfindən bu kimi qanunsuz daşımaların dayandırılması tələbi səsləndirilib. Bununla da Azərbaycan BƏM-də öz mövqelərini qoruyaraq bildirdi ki, Ermənistan tərəfi yenə də Laçın yolundan çirkin məqsədlər - separatizmi ayaqda saxlamaq, Azərbaycana qarşı təxribatlar hazırlamaq üçün istifadə etməyə çalışır"*.

Elşad Mirbəşiroğlu deyib ki, Beynəlxalq Məhkəmədə həmçinin Ermənistan tərəfindən indiyə kimi Azərbaycan ərazilərinə basdırmış olduğu minaların dəqiq xəritəsinin verilmədiyi də diqqətə çatdırıldı: *"Kifayət qədər təsirli tribunadan bu faktların səsləndirilməsi vacib idi. Beynəlxalq Məhkəmədə açıq şəkildə tələb edildi ki, Ermənistan Azərbaycan ərazilərinə minaların daşınması dayandırsın və indiyə qədər basdırmış olduğu minaların xəritəsini təqdim etsin. Bu baxımdan Azərbaycan kifayət qədər mötəbər bir platformada öz hüquqlarını inamla qoruması bacardı. Bu Avropa Parlamentinin son qəbul etmiş olduğu absurd qətnamənin də qərəzli olduğunu nümayiş etdirdi"*.

Qeyd edək ki, Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Azərbaycan Ermənistana qarşı) əlavə müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə Azərbaycanın sorğusu üzrə açıq dinləmələr keçirilib.

***Tapdıq Qurbanlı***



## Paşinyandan radikal qərar

**Ermənistanda durum dəyişir**

**Ermənistan Baş naziri Nikol Paşinyan bütün dövlət strukturlarının rəhbərliklərini dəyişdirmək qərarına gəlib.**

Bu barədə Ermənistanın *"Joqovurd"* qəzeti məlumat yayıb.

*"Rəsmi mənbələrimiz bildirir ki, Paşinyan bütün dövlət strukturlarının rəhbərliklərini alt-üst etmək niyyətindədir, ona görə də şəxsən qurumlarda nə baş verdiyini anlamaq qərarına gəlib"*, - məlumatda qeyd edilib.

Nəşr bildirib ki, ötən ilin sonundan nazirliklərə baş çəkən və hesabatları dinləyən Paşinyan bir sıra nazirləri təəccübləndirib: *"Baş nazir onlara deyib ki, gördüyü işlərə görə onu tərifləməsinlər, əksinə planlaşdırılmış, amma yerinə yetirilməmiş işlər haqqında danışsınlar. Yaxın vaxtlarda hakimiyyətin tabeliyində olan müxtəlif dairələrdə yeni hərəkətlənmənin olacağı istisna edilmir"*.

## Ukrayna üçün yeni silahlar

ABŞ Ukraynaya 150 kilometr məsafədəki hədəfləri vura bilən uzaqmənzilli raketlər ötürməyə hazırlaşır. Söhbət HIMARS qurğularından buraxıla bilən GLSDB raketlərindən gedir.

Həmçinin, bu həftənin əvvəlində elan oluna biləcək bu hərbi yardım paketinə Patriot hava hücumundan müdafiə sistemləri, dəqiq idarə olunan hərbi sursatlar və Javelin tank əleyhinə raket sistemləri üçün dəstək ləvazimatları daxil olacaq.

Bundan əlavə, Amerika silah istehsalçısı General Atomics Ukraynaya iki yüksək səviyyəli Reaper MQ-9 zərbə və kəşfiyyat aparatını bir dollara satmağı təklif edir. Bununla belə, pilotsuz təyyarələrin hazırlanması və çatdırılması 10 milyon dollardır və Reaper MQ-9-a texniki xidmət ildə təxminən 8 milyon dollar tələb edir. Belə bir dronun adi qiyməti təxminən 32 milyon dollardır.

Razılaşma olacağı təqdirdə korporasiya həmçinin pilotsuz uçuş aparatları üçün yerüstü idarəetmə stansiyasını da təchiz edəcək.

***Dadaş Əhmədli***

# İrəvandan rəsmi etiraf: "İran döyüşlərdə bizə kömək etdi"

Bizdə olan kəşfiyyat məlumatlarına görə 2022-ci ilin sentyabrında baş verən döyüşlər zamanı Azərbaycan daha genişmiqyaslı hücumlara hazırlaşmışdı. Belə bir iddia ilə "Al-Monitor"a açıqlama verən Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan çıxış edib.



İrəvanın sərhəd təxribatlarına cavab olaraq Bakının reallaşdırdığı cavab tədbirlərindən danışan Kostanyan İranın erməni ordusunun arxasında durmasını gizlətməyib.

Nazir müavini onu da iddia edib ki, rəsmi Bakının sərhəd təxribatlarına cavab tədbirləri sentyabrın 13-14-də başlayan hərbi əməliyyatlardan qat-qat böyük olmalı imiş. Kostanyanın fikrincə, Ermənistanın cənub qonşusu İranın müəyyən davranışları və ritorikası bu gərgin vəziyyətin daha da pisləşməsinin qarşısını almağa kömək edib.

Tehranın sentyabr döyüşlərində İrəvanın tərəfində durduğunu gizlətməyən diplomat İranın bu gün də Ermənistanın mühüm tərəfdaşı olduğunu xüsusi olaraq vurğulayıb. O qeyd edib ki, İran və Gürcüstanla olan sərhəd ölkəsi üçün xarici dünyaya açılan nəfəslik sayılır və mühüm əhəmiyyət kəsb edir.

Amma maraqlıdır ki, Tehranla hərbi-texniki əməkdaşlıq məsələlərinə toxunan Kostanyan İran silahlarının alınmasının İrəvanın planlarına daxil olmadığını bəyan edib.

***Tural Tağıyev***



## Xüsusi xidmət Avakovun evində axtarış aparıb

**Ukraynanın sabiq Daxili İşlər naziri Arsen Avakovun evində axtarış aparılıb.**

Ukrayna mətbuatı xəbər verir ki, Avakovun evində və ofisində aparılan axtarışları Ukrayna Təhlükəsizlik Xidməti və Ukrayna İstintaq Bürosu həyata keçirib.

Məlum olub ki, axtarışlar Avakovun nazir olduğu dövrdə Fransadan alınmış *"Airbus"* helikopterləri ilə bağlıdır. Belə ki, bir müddət əvvəl məhz həmin helikopterlərdən birinin qəzaya uğraması nəticəsində Ukraynanın Daxili İşlər naziri və bir neçə yüksək vəzifəli məmur həlak olublar. Hələ ki, hüquq-mühafizə orqanları axtarışın nəticələri barədə açıqlama verməyiblər.

# Azərbaycanın əsas düşmənləri:

## Ermənistan, rüşvət və korrupsiyadır

10 noyabr 2020-ci il tarixdə Rusiya, Azərbaycan və Ermənistan arasında atəşkəs bəyanatının imzalanmasından 2 il 3 aydan çox vaxt keçir. Bəyanatda əks olunmuş müddəalar – Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz Azərbaycana təhvil verilməsi – tələbi bəyanatda göstərilən vaxtda icra olundu. Bundan sonra Ermənistan üçtərəfli bəyanatda üzərinə götür-düyü öhdəlikləri yerinə yetirmir. Rusiya sülhməramlıları da üçtərəfli bəyanatda Azərbaycana aid olan maddələrin yerinə yetirilməsinə əhəmiyyət vermir. Cənubi Qafqazı nəzarətdə saxlamaq və Ermənistanın qanunsuz torpaq iddiasının təmin olunmasına xidmət edir.

Hazırda Azərbaycan Ermənistanla sülh müqaviləsi bağlamaq təklifi üzərində dayanıb. Lakin Ermənistan xarici havadarlarının göstərişilə sülh müqaviləsi bağlamaqdan imtina edir, silahlanır, Azərbaycanla müharibəyə hazırlaşır. Azərbaycan isə, həm Ermənistano, həm də onun xarici himayəçilərinə tez-tez xəbərdar edir. Erməni hərbi birləşmələri Azərbaycan ərazilərini ardıcıl atəşə tutmaqla, müharibə iddiasında olduğunu, Qarabağa status tələb etdiyini nümayiş etdirir. Azərbaycan son iki ildə hər dəfə Ermənistana sülh sazişi bağlamaq təklif edir, regionda sülhün bərqərar olmasına çalışır. Amma Ermənistan nə bu təkliflə razılaşır, nə də 10 noyabr bəyanatında üzərinə götürdüyü öhdəliyə əməl etdir.

Davranışından aydın hiss olunur ki, Ermənistan hazırda ABŞ və Fransanın təlimatı ilə işləyir. Rusiya ilə Ukrayna arasında bir ilə yaxın davam edən müharibəni körükləyən ABŞ və Avropa İttifaqı, xüsusən Fransanın Rusiya-Ukrayna müharibəsinin perspektivdə yaradacağı sərfəli durumdan istifadə edib, məqsədlərinə çatacaqları üzərində düşünür. Aİ Azərbaycanla razılaşmadan Ermənistana 200 nəfərlik missiya göndərib. Buna paralel olaraq, Rus ordusunun Ermənistandan çıxarılması tələbi ilə ardıcıl aksiyalar keçirilir.

Azərbaycan Qarabağda olan sərvətlərimizin talanmasını dayandırmaq üçün ərazidə ekoloji monitorinq keçirmək tələbilə Rusiya sülhməramlılarının rəhbərliyinə müraciət edib. Müraciət təmin olunmadığına görə, ekofəallar təşkil etdiyi dinc etiraz aksiyası 2 aya yaxındır ki, davam edir. Artıq ermənilər və onların xarici ortaqları Xankəndi-Şuşa yolundan istifadə etməkdən məhrum olublar, sərvətlərimizi xaricə daşıya bilmirlər. Rusiya sülhməramlıları və Xankəndində yaşayan sadə insanların Xankəndi-Şuşa yolundan keçməsinə zərrəcə manеə yoxdur. Doğrudur, erməni təxribatçıları ekofəallarların təşkil etdiyi aksiyaların dinc insanları blokadaya almaları barədə hayküy salırlar, amma bu şayiələrin heç bir əsası olmayan uydurma, yalan olduğu tutarlı faktlarla rədd edilir.



Regionumuz və ölkəmiz hazırda dünyanın ən gərgin nöqtələrindən sayılır. Dünyanın düşmənçilik edən super güclərinin maraqlarının toqquşduğu Cənubi Qafqaz hazırda ən çətin dövrünü yaşayır. Bir tərəfdən, Ukrayna ilə müharibə edən Rusiyanın regionda söz sahibi olması durumu daha da ağırlaşdırır. Digər tərəfdən, İran molla rejimi ölkəmizin əleyhinə fəaliyyətini gücləndirir, Ermənistanı silahlandırır, Naxçıvanla ölkənin Qərb rayonlarını birləşdirəcək Zəngəzur dəhlizinin açılmasına qarşı çıxır, Tehrandakı səfirliyimizə silahlı basqın edir, regionda terror təhlükəsini gücləndirir.

ABŞ və Fransanın hərəkətlərindən aydın görünür ki, Rusiyanın Ukraynada olan hərbi gücünü parçalamaq məqsədilə Cənubi Qafqaz regionunda Rusiyaya qarşı müharibə cəbhəsi açmaq niyyətləri var. Azərbaycan isə regionda müharibə başlanmasının əleyhinədir və buna qarşı daim mübarizə aparır. Lakin Ermənistanın müharibəni davam etdirməsi, Azərbaycanın təklif etdiyi 5 maddədən ibarət sülh müqaviləsini imzalamaqdan boyun qaçırması hər iki ölkədə və regionda vəziyyətin yaxın zamanlarda normallaşmasını söyləməyə imkan vermir.

Düşmənləri dəf etmək, ölkəni müharibə və digər çətinliklərdən çıxarmaq məqsədilə ölkə Prezidenti çox səmərəli xarici siyasət aparır. Dost dövlətlərin sırasını genişləndirir, Türk Dövlətləri Təşkilatının güclənməsinə yardım edir, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasına yardım etməklə, Avropa İttifaqı ilə münasibətləri ən üst səviyyəyə qaldırır. 2023-cü ildə Avropa dövlətlərinə 40 milyard kub metr qaz ixrac edilməsi barədə bağladığı enerji müqaviləsi ölkəmizin iqtisadi qüdrətini gücləndirməklə yanaşı, həm də Azərbaycanın Avropa dövlətlərilə inteqrasiyasına zəmin yaradır. Eyni zamanda, Aİ ilə yaxınlaşma Rusiyanın təsirindən uzaqlaşmaq və onun strateji müttəqliyindən aralanmaq üçün böyük şans yaradır.

Azərbaycanın daxilində ən böyük problem olan, ölkəni inkişafdan geri salan, dünya dövlətləri arasında nüfuzuna təsir edən, ölkə əhalisinin dövlətə bəslədiyi inama sağlamaz yaralar vuran rüşvət və korrupsiyaya qarşı mübarizənin ölkədə fasiləsiz davam etdirilməsi müsbət hadisədir. Müəyyən müsbət nəticələr əldə olunsa da, ölkədə bu sahədə hələ əsaslı dönüş yaratmaq mümkün olmayıb. Bütün məmurlar arasında rüşvət və korrupsiya fəaliyyəti çox güclüdür. Rüşvət və korrupsiyanı dövlət idarəetməsinin nüvəsindən çıxarmaq istiqamətində daha ciddi tədbirlər görməyə ehtiyac var. Xalq təcili olaraq dövlət idarəetməsinə cəlb olunmalıdır. Milli Məclis və digər strukturlar xalqın iradəsilə yenidən formalaşmalı, yuxarıdan aşağı bütün dövlət sturukturları klançılıqdan azad olunmalıdır.

Ölkənin sağlam düşüncəli ziyalılarının fikri ondan ibarətdir ki, dövlət başçısının ölkədə və Naxçıvanda apardığı struktur və kadr islahatları sona kimi davam etdirilməlidir və Muxdar Respublika əhalisində dövlətə qarşı süni yaradılmış nifrət mənbəyi "Vasif Talıbov" sindiromunun kökü tam kəsilməlidir. Eyni tədbirlər ölkə daxilində də ardıcıl davam etdirilməlidir. Rüşvət və korrupsiya ilə məşğul olmaqda davam edən yüksək vəzifəli şəxslər kürsülərdən təmizlənməli, onların dövlətdən və xalqdan oğurladıqları milyardlar şəffaf halda dövlət büdcəsinə qaytarılmalı, ayrı-ayrı adamlar tərəfindən təkrar mənimsənilməsinə imkan verilməməlidir.

İctimaiyyyət, xalq arasında dolaşan və millətin dövlətə bəslədiyi inama sarsıdıcı zərbə vuran təhlükəli şayiələrin kökünü kəsmək üçün rüşvət və korrupsiya ittihamı ilə həbs olunan vəzifəli şəxslərdən geri alınan milyonların, milyardların miqdarı barədə vaxtında ictimaiyyətə məlumat verilməsi təmin olunmalıdır. Həmin pulun dövlət büdcəsinə və ya hansı məqsədlər üçün istifadə olunacağı barədə xalqa doğru informasiya verilməsi çox vacibdir. Rüşvətxorlardan və korrupsionerlərdən alınan pulların şəffaflığı tam təmin olunmayınca, həqiqəti xalqa çatdırmaq çətin olacaq.

Gəlin, onminlərlə şəhidin qanı hesabına qurduğumuz dövlətimizi qorumaq və möhkəmləndirmək naminə bir olaq, birlik olaq, dövlətimizin üçrəngli bayrağı altında birləşək!..



Tapdıq ABBAS
Baş redaktor,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

### AZƏRBAYCAN HAKİMİYYƏTİNİN YUMŞALMA İŞARTILARI

Son yazılarımın birində demişdim ki, Azərbaycan hakimiyyəti 2023-cü ildə yumşalma əlamətləri göstərəcək, buna məcbur olacaq. Təbii ki, bu yumşalma sərtliklə birgə olacaq - hakimiyyət zəif görünmək istəməz. Hakimiyyətin yumşalmağa doğru addımlar atacağının səbəblərini belə sıralamışdım: zalım Rusiya zəifləyir, İran molla diktaturası Azərbaycanı güclü biçimdə sıxışdırır, Türkiyə seçimə doğru gedir, Avropa və ABŞ Qarabağ məsələsinə görə təzyiq göstərir, xalqın siyasi-sosial narazılıqları surətlə artır. Azərbaycan hakimiyyətinin xalqın gücünə ehtiyacı var, bu ehtiyac hər gün artır, artacaq...

Azərbaycan hakimiyyətinin yumşalma işartıları bunlardır:

***- Keçmiş illərdən fərqli olaraq Rəsulzadənin heykəlinin ziyarətinə mane olmadı;***

***- Bir sıra TV-lər Rəsulzadə ilə bağlı önəmli xəbər verdi;***

***- Rəsulzadə ilə bağlı TV-lərdə göstərilməsi yasaqlanan filmin kinoteatrlarda nümayişinə izin verildi, həm də bir həftə;***

***- Ən önəmlisi Azərbaycanın Türkiyədəki səfiri MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN məzarını ziyarət etdi, bunu gizlətmədi, görüntülər paylaşdı, bilinməsini istədi - hakimiyyətin izni olmadan bir səfir bunu edə bilməz;***

Deyirəm ki, Azərbaycan hakimiyyəti xalqa doğru addımlar atsa, müxalifətlə gerçək və sağlam dialoqun qapısını açsa, bu nəticələr ortaya çıxar:

***- Azərbaycana zərər verən, gücünü azaldan, onu düşmənlər qarşısında çarəsiz duruma salan gərginlik azalar;***

***- Siyasi-sosial inkişafın yolu açılar;***

***- Azadlığa, ədalətə bağlı milli birliyə doğru addımlar atılar;***

***- Xalq da, Azərbaycan hakimiyyəti də, müxalifət də güclənər;***

***- Molla diktaturasının təzyiqi azalar;***

***- Rusiyadan uzaqlaşmaq asanlaşar;***

***- Türkiyə ilə iş birliyi daha da güclənər;***

***- ABŞ və Avropa ilə əlaqələr qurmaq imkanı artar;***

***- Azərbaycanın müttəfiqləri çoxalar;***

***- Kimsə Qarabağ məsələsi ilə bağlı Azərbaycanı mənafelərinə uyğun olmayan addımlara məcbur edə bilməz;***

***- Yeni Parlament seçkisinin zəruriliyi ortaya çıxar - normal bir seçki Azərbaycanı Rusiya və İran qarşısında o qədər gücləndirər ki!;***

***- Azad mətbuat formalaşar, xalqın maariflənməsi, siyasi və milli şüurun inkişafı sürətlənər;***

***- Cəmiyyətə çox ehtiyac hiss etdiyi barış gələr;***

***- Demirəm ki, Azərbaycan hakimiyyəti yumşaldı, hər şey həll olunmağa başladı, işartılar olduğunu söyləyirəm, bunun doğru olduğunu göstərirəm, deyirəm ki, sağlam mübarizə təşkil olunsa, xarici səbəblərin də təzyiqi ilə Azərbaycan hakimiyyəti dəyişməyə-yumşalmağa olacaq;***

***- Azərbaycanın ÜSYANA deyil, İSLAHATA ehtiyacı var. Bunun ilk əlaməti də milli birliyə doğru səmimi addımların atılmasıdır. Təbii ki, ilk addım hakimiyyətə aiddir;***

***Siracəddin Hacı yazır...***

2 fevral 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru


# AZƏRBAYCAN HAKİMİYYƏTİ QƏRBİ AZƏRBAYCANLILARI NİYƏ ÖNƏ ÇIXARIR?

- 2023-cü il bizimlə birbaşa bağlı olan dörd ölkədə hakimiyyəti qorumaq - xilas etmək uğrunda mübarizə ilidir: Rusiya, Türkiyə, İran, Azərbaycan;

- Ukraynada siyasi, iqtisadi, hərbi, diplomatik bataqlığa saplanan Rusiya da, Putin də zəifləyir. Rusiya ilə sıx bağlı olan Azərbaycan hakimiyyəti onun savaşda məğlub olması halında ortaya çıxacaq nəticədən çox narahatdır, ən önəmli dəstəkdən məhrum qala bilər. Azərbaycan hakimiyyəti bu nəticənin ola biləcəyini görür, Putindən sonrakı - zəif Rusiya dönəminə hazırlaşır, itirilmə ehtimalı ciddi olan xarici dəstəyin yerini iç (daxili) dəstəklə - hakimiyyətin dayaqlarını yerliçilik əsasında gücləndirməklə doldurmağa çalışır - qərbi azərbaycanlılara yönəlir;

- Türkiyədə seçim yaxınlaşır, Ərdoğanın işi çox çətindir, onun qatı tərəfdarları da seçim ikinci tura qalacaq tezisi ilə razılaşırlar - türk xalqının ən doğru seçimi edəcəyinə inanıram. Əgər HDP seçkidə öz namizədi ilə iştirak etməsə, altılı masanın namizədini dəstəkləsə, Ərdoğanın seçkinin birinci turunda məğlub olmaq ehtimalı son dərəcə güclənəcək. Ərdoğanın Azərbaycan hakimiyyətinə önəmli dəstək verdiyi bəllidir. Bu, çox güclü dəstəkdən məhrum olmaq Azərbaycan hakimiyyətinin sıxıntılarını artırır, onu daxili imkanlara - qərbi azərbaycanlılara yönəldir;

- İran molla diktaturasının taleyi tükdən asılıdır, yasaqlar nəticəsində dünyadan, zülmü ilə xalqdan qopmuş rejimi uzun müddət qorumaq imkansızdır. Molla diktaturası bu gün özünü edam, həbs, işgəncə, qorxu, yasaqlarla qorumağa çalışır. Rejimin Azərbaycan hakimiyyətinə münasibəti (və əksinə) dəymə mənə, dəyməyim sənə ölçüsü üzərində qurulmuşdu. İş (razılıq) o yerə çatmışdı ki, Azərbaycan hakimiyyətinin razılığı ilə İranın lideri Seyid Əli Xamneyinin özəl təmsilçisi Bakıda dini fəaliyyətlə məşğul olur, Azərbaycanda İranın mənafeyinə xidmət edənləri ələqələndirir, siyasi məqsədli dini xurafələr yayır, minlərlə azərbaycanlının düşüncəsini zəhərləyir, Azərbaycan hakimiyyəti isə susurdu. Qarabağ savaşından sonra tarazlıq pozuldu, Azərbaycanın güclənməsi İranı narahat etdi, onun iç üzü ortaya çıxdı, Azərbaycana açıq düşmənlik siyasətinə yönəldi Molla rejiminin çökməsi Azərbaycan hakimiyyəti üçün yeni vəziyyət ortaya çıxaracaq, İrandakı siyasi zəlzələ Azərbaycana, Azərbaycan hakimiyyətinə ciddi təsir göstərəcək. Azərbaycan hakimiyyətinin bu siyasi zəlzələnin nəticələrindən qorunmaq üçün daxili gücə - dayağa ehtiyacı var, yoxsa ayaq üstə durması çətin olar, elə buna görə də daxili siyasi qaynaq axtarır - qərbi azəraycanlılara yönəlir;

- Bir də ölkə daxilindəki vəziyyət var, Putinin, Ərdoğanın dəstəyi itirilsə, mövcud Azərbaycan hakimiyyətini tənqid etsək də, o, başqalarından daha yaxşı, sərfəlidir deyən molla diktaturası çöksə, xarici bağı zəifləyən - qırılan hakimiyyətin sosial-siyasi narazılığı sürətlə artan xalqı idarə etməsi çətin işdir, daxili dəstək olmadan imkansızdır, elə buna görə də güc qaynağı arayışı qaçılmazdır. Sizə qəribə gəlsə də, deyirəm ki, Azərbaycan hakimiyyəti sərtləşməyə deyil, yumşalmağa doğru gedəcək, məcbur olacaq, ancaq bunu elə edəcək ki, zəif olduğu bilinməsin, hakimiyyətin zəifliyi fikri ortaya çıxmasın, rəqiblər həvəslənməsin;

- Vasif Talıbovla bağlı məsələdən sonra belə bir fikir ortaya çıxdı ki, hakimiyyət Naxçıvan qrupunu sıradan çıxarır. Bu, doğru ölçü deyil, Azərbaycan hakimiyyəti təşkilatlanmış, güclü, əlində böyük imkanları olan bu qrupdan imtina etməz, bu gücü yenidən nizamlayar, nizamlayacaq, yeni fiqurlar önə çıxaracaq. Arada bir az sıxışdırsa da, onların imkanlarını azaltmağa çalışsa da, vəziyyət dəyişdi, xarici dayaqları zəifləyən hakimiyyətin daxili qaynaqlara ehtiyacı var, elə buna görə də Naxçıvan və Qərbi Azərbaycan qrupunu yenidən sistemləşdirəcək;

- Bir məsələ də var: Azərbaycan xalqının siyasi şüuru yavaş-yavaş olsa da, formalaşır, bu hakimiyyətin ənənəvi idarəçilik üsulu ilə xalqın tələbləri arasında uyğunsuzluq yaradır, xalq bir az böyüyüb, uşaqlıq köynəyi bədənə dar gəlir, böhrana yol açır - böhran problemlərin həlli ilə bağlı mövcud üsulların bir işə yaramaması nəticəsində ortaya çıxır. Azərbaycan hakimiyyəti xalqla yeni ünsiyyət yolları tapmağa məcburdur. Bu məsələnin həm siyasi, hüquqi islahatlar tərəfi, həm də daxili imkanları artırmaq yönləri var - Ana Yasa da dəyişəcək, Naxçıvan və Qərbi Azərbaycan qruplarına yönəliş də güclənəcək;

Azərbaycan hakimiyyəti siyasi imkanlarını niyə məhz yerliçilik əsasında artırmağa çalışır?

**Səbəbləri sıralayaq:**

- Azərbaycanda azadlıq və ədalət olmadığından milli şüurun formalaşması gecikir - gecikdirilir, milli dəyərlər deyil, aşağı səviyyəli cəmiyyətlərin ən önəmli özəlliklərindən biri olan yerliçilik önə çıxır, azərbaycanlılar yerliçilik əsasında daha tez və sıx birləşirlər - bizi çox zaman yerliçilik və yas bir araya gətirir;



- Azadlıq və ədalət olmadığından siyasi fikirlərin, dəyərlərin, anlayışların formalaşması gecikir - gecikdirilir, Azərbaycanda sağçı, solçu, liberal, mühafizəkar, milliyyətçi, sosialist anlayışları əsasında təşkilatlanma yoxdur - zəifdir, regional kimlik siyasi kimlikdən güclüdür;

- Azadlıq və ədalət olmadığından siyasi partiyaların formalaşması gecikir - gecikdirilir, partiyaların cəmiyyətə təsiri zəifdir, müxalif partiyaların, hakimiyyətlə müxalifətin ortaq dəyərlər əsasında ittifaq arayışları yoxdur;

- Azərbaycan iqtidarı əbədi hakimiyyət anlayışına sahib olduğundan kimsəni özünə rəqib saymır, hakimiyyəti siyasi qüvvələrlə bölüşmək fikri yoxdur, o, müxalifəti rəqib deyil, düşmən, xain, casus hesab edir, onları əzməyə, yox etməyə çalışır, Qərbi azərbaycanlılara hakimiyyətdən bir az pay ayıraraq özünü gücləndirmək yolunu seçir;

- Azərbaycan hakimiyyətinin Qərbi azərbaycanlılarla əməkdaşlıq təcrübəsi var, belə ki, Heydər Əliyev hakimiyyətinin iki dayağından biri onlar idi, sonrakı dönəmlərdə bu qrup xeyli sıxışdırıldı, imkanlarının bir qismi əllərindən alındı, ancaq yeni şərait əməkdaşlığı zəruri edir, təcrübə və keçmiş əməkdaşlıq iş birliyinin imkanlarını artırır;

- Qərbi azərbaycanlılar təşkilatlanmış qrupdur, Heydər Əliyev onlar üçün birləşdirici fiqurdur, hakimiyyətdə təmsilçiləri var, İrəvan bizimdir şüarı onlar üçün cazibəli görünür;

- On üç il həbsdə yatmış Əli İnsanov hakimiyyəti müdafiə etdiyini bildirəndə demişdim ki, Əli İnsanovun mövqeyi önəmli deyil, önəmli sual budur: bu mərhələdə hakimiyyətin Əli İnsanova niyə ehtiyacı var? Cavab iqtidarın Qərbi azərbaycanlıları öz ətrafında toplamaq istəyidir;

- Prezident Qərbi azərbaycanlıları səfərbər etmək işinə başladı, onlara böyük qərargah verdi, açılışa getdi, onların təmsilçiləri ilə görüşdü, onları hərəkətə keçirəcək şüarlar səsləndirdi - Göyçə, İrəvan bizimdir, siz dogma yurdunuza qayıdacaqsınız. Prezidentin məhz bu məclisdə Cumhuriyyət qurucularına ağır ittihamlar irəli sürməsinin də səbəbi var: O, Qərbi azərbaycanlılara deyir ki, sizin torpaqlarınızı ermənilərə verənlərlə, onların bugünkü təmsilçiləri ilə nə işiniz var? Sizin yeriniz bu torpaqları qaytaracağını vəd edən Prezidentin yanıdır;

- Azərbaycan hakimiyyəti Qərbi azərbaycanlıları öz ətrafında toplamaq siyasətini daxili məsələ kimi deyil, İrəvana qayıdış kimi təqdim edir - məsələnin bu yönü də var. Səbəb budur: zəif görünmək, hakimiyyətin kiməsə ehtiyacı var fikrini formalaşdırmaq, rəqibləri duyuq salmaq istəmir - oyanan tədbirli olar;

- Qeyd edim ki, Zəngəzuru zorla alacağıq, Göyçə gölündə balıq tutacağıq, İrəvana bayraq sancacağıq şüarları gerçəkçi deyil, bu səbəblərə görə ziyanlıdır: *1) Rusiyanın Güney Qafqazdakı mövqeyini gücləndirir - Rusiya Azərbaycanla Ermənistan arasında düşmənliyin artmasını istəyir; 2) Rusiyanın Ermənistandakı təmsilçilərinin imkanlarını artırır; 3) Ermənistanı İrana məhkum edir; 4) Azərbaycanla Ermənistanın birbaşa danışıqlarının nəticə verməsinin yolunu kəsir; 5) Qarabağ ermənilərini Azərbaycandan uzaqlaşdırır; 6) Türkiyənin Ermənistanla əlaqə qurmasına imkan vermir; 7) Azərbaycanı müttəfiqlərdən məhrum edir; 8) Avropa və ABŞ-ı Azərbaycana qarşı yönəldir; 9) Brüssel danışıqlarını pozur;*

- İnanıram, qəti əminəm ki, Rusiya Güney Qafqazdan çıxarılsa, işğalçı rus ordusu Qarabağı tərk etsə, Qafqaz Evi qurulsa, Qərbi azərbaycanlılar dogma yurdlarına qayıdacaqlar - qayıdışın yolu savaş deyil, barışdır - Rusiya Güney Qafqaza gəlməzdən öncə bu bölgənin hakim gücü və mədəniyyəti Azərbaycan olmuşdur;

Azərbaycan hakimiyyətinin siyasi imkanlarını artırmaq məsələsi sadəcə Qərbi azərbaycanlılarla bağlı deyil, bu, işin bir yönüdür, məsələnin siyasi, hüquqi, xarici siyasət istiqamətləri də var



Siracəddin Hacı

# Dövlət büdcəsini niyə dağıdırlar?

## Gəncə sakini hədələndiyini deyir

Ölkə əhalisinin sosial-iqtisadi problemləri kifayət qədərdir. Bu sırada insanların müvafiq qurumlar tərəfindən incidilməsi də heç kimsəyə sirr deyil. Budəfəki şikayətin müəllifi isə Orxan İsmayılovdur. Şikayət müəllifi Gəncə şəhər Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyinə iradından sonra hədələndiyini iddia edir. Onun söylədiyinə görə, Birliyin tenderlərində qalib gələn iki şirkət üçün eyni VÖEN-in göstərildiyini üzə çıxarıb. Belə ki, tenderlərdə qalib şirkətlər ayrı-ayrı adlardadır, lakin VÖEN birdir.

Şikayətçiyə görə, təkcə bu faktın özü bir qanuni şirkətin müxtəlif saxta adlar altında tenderlərdə qalib elan edildiyi barədə şübhələr yaradır. Orxan İsmayılovun bildirdiyinə görə, araşdırması zamanı o, tenderlərdə qalib elan edilən “LK Machinery” MMC üçün göstərilən VÖEN-in (1503554731) əslində ”Abşeron Tekstil” MMC-yə məxsus olduğunu aşkar edib.

O da bildirilir ki, kommersiya qurumlarının dövlət reyestri məlumatlarına “LK Machinery” adı ilə sorğu etdikdə “Bu ada uyğun VÖEN müəyyən edilmədi”, “məlumat tapılmadı!” cavabları verilir. 1503554731 VÖEN-i ilə sorğu etdikdə isə “Abşeron Tekstil” MMC haqqında bəzi məlumatlar göstərilir.

Beləliklə, Orxan İsmayılovun müraciətindən bəzi məqamlarla tanış olaq: “Mən bir vətəndaş olaraq “Facebook” sosial şəbəkəsində Gəncə şəhər Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyinin (Gəncə



MKTİB) “facebook” səhifəsinə yazaraq Gəncədə MKTİB-in küçə təmizliyi ilə məşğul olan işçilərinin isti qış geyimləri ilə hansı səbəbdən təmin olunmadıqları, soyuqda həmin işçilərin necə gəldi geyindiklərini irad tutdum. Bu iradıma cavab olaraq Gəncə MKTİB tərəfindən mənim barəmdə hüquq-mühafizə orqanlarının ölçü götürüləcəyi ilə hədələndim və səhifəyə girişim bloklandı. Mən Gəncə MKTİB tərəfindən işçilərin geyim təminatı ilə bağlı müstəqil araşdırma apardım və www.etender.gov.az portalı üzərindən sorğu verərək Gəncə MKTİB-in keçirdiyi tenderlərə baxdım. Maraqlı məlumatlar əldə etdim və onları ölkə ictimaiyyətinə sizin sayt vasitəsilə təqdim edirəm.

Tender məlumatlarına baxdıqda məlum olur ki, işçilərin xüsusi geyimlərlə təminatı ilə bağlı Gəncə MKTİB 2020-ci ildən bugünə qədər 3 dəfə - 31.12.2020, 31.03.2022, 31.12.2022 tarixlərində tender keçirib. İki tenderdə “LK Machinery” MMC, bir tenderdə isə “Abşeron Tekstil” MMC qalib olub.

Sual doğuran məqamlardan biri odur ki, hər iki şirkətin VÖEN-i eynidir - 1503554731. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Kommersiya qurumlarının dövlət reyestri məlumatlarında 1503554731 VÖEN üzrə axtarış etdikdə “Abşeron Tekstil” MMC-nin məlumatları çıxır, halbuki, tender sənədlərində həmin VÖEN hər iki şirkət üçün eynidir.

2017-ci ildə dövlət qeydiyyatına alınmış “Abşeron Tekstil” MMC-nin hüquqi ünvanı Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev, ev 79/2, m.50, qanuni təmsilçisi isə Məmmədova Ziyafət Əkbər qızıdır.

İkinci sual doğuran məqam isə tenderlərdə qalib olan iki şirkətə xüsusi geyimlər üçün ödənilən məbləğlərdir. Müvafiq olaraq 284757.60 AZN (iki yüz səksən dörd min yeddi yüz əlli yeddi manat altmış qəpik), 316862.57 AZN (üç yüz on altı min səkkiz yüz altmış iki manat əlli yeddi qəpik), 105521.5 AZN (yüz beş min beş yüz iyirmi bir manat əlli qəpik), cəmi 707141.67 AZN (yeddi yüz yeddi min yüz qırx bir manat altmış yeddi qəpik) bütün məlumatları eyni, sadəcə adları fərqli, mahiyyətcə eyni şirkətin hesabına köçürülüb. 707141.67 AZN-ə alınan xüsusi geyimlər ilə yəqin ki, ölkənin MKTİB işçilərinin xeyli hissəsini il boyu geyindirmək olar və həmin geyimlər dünya brendlərinə məxsus olar. Həmin geyimlər həqiqətən də alınıbmı və iki ildə həmin geyimlər necə istifadə olunub?!

Tenderlər üzrə alınmış xüsusi geyimlərin miqdarı belədir: 630 dəst xüsusi geyim (gödəkçə, pencək, şalvar), 1050 ədəd jilet, 485 ədəd xalat, 500 cüt çəkmə, 800 cüt bot, 830 ədəd kombinezon, 950 ədəd plaş, 960 ədəd xüsusi geyim dəsti (gödəkçə, pencək, şalvar), 1400 ədəd jilet, 550 cüt bot, 1050 cüt rezin çəkmə, 1400 ədəd xüsusi geyim forması, 950 ədəd xalat, 16800 cüt əlcək.

Mən Gəncə şəhəri sakini kimi Gəncənin küçələrində işləyən MKTİB işçilərinin əynində qış fəslində sadalanan xüsusi geyimlərdən yalnız mavi rəngli yay mövsümü xalatlarını nadir hallarda görürəm, son çəkdiyim fotoşəkildə də iki nəfər MKTİB işçisi öz paltarlarını geyiniblər.

Gəncə MKTİB-in rəis müavininin qəbulunda olarkən mən ona birlikdə Gəncə MKTİB-in anbarında həmin geyimləri saymağı təklif etdim. Amma cavab almadım.

Vətəndaşların dövlət vəsaitinin necə və hara xərclənməsinə ictimai nəzarətinin effektiv olması üçün sənədlərin surətinə əks olunan iddia və şübhələrimi əlavə etməklə mövqeyimi dərc etməyinizi sizdən xahiş edirəm.

Tenderlərdə mənə şübhəli gələn məqamlara aidiyyatı dövlət qurumlarının cavab verəcəyinə ümid edirəm”.

Nigar

# Əhaliyə iylənmiş toyuqlar satılır?

## Bu faktın arxasında dayananın kimliyi...



Ölkədə kiçik sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsindən çox danışılır. Bu sırada zaman-zaman nöqsanlar da eşidilir. Kiçik sahibkar Pərviz Fərəcovun şikayəti də elə bu barədədir.

P.Fərəcov qeyd edir ki, “Lebro” broyler şirkətindən satmaq məqsədilə 17.500 (on yeddi min beş yüz) manatlıq qablaşdırılmış toyuq alıb. O aldığı məhsulun 9.500 (doqquz min beş yüz) manatını Nəriman və Orxan adlı şəxslərə ödəyəndən sonra qalanını da borclu qalıb: “Sonra malı açanda baxdım ki, onun hamısı iylənmiş toyuqlardır. Məhsulu geri qaytarmaq üçün dəfələrlə müraciət etsəm də qəbul etmədilər. Axırda mənə dedilər ki, onları apar Lerikə, yəni fabrikin özünə. Mən xərc çəkib yükdaşıma xidmətindən yük maşını sifariş verərək, məhsulu apardım Lerikə. Orda da borclu qaldığım qədərini götürdülər, pulunu ödədiyim qədərini isə nə qədər israr etsəm də geri almadılar. Mən də məcbur olub malı şirkətin həyətinə boşaltdım.

Geri qayıdanda mülki geyimli polis əməkdaşları yolda ”VAZ-2107” markalı avtomobillə qarşımızı kəsdilər və haqqımızda şikayət olduğunu dedilər. Güya bizim sürücü şlaqbaumu qırıb. Sonra dedilər ki, mühafizəçini vurub.

Biz yenidən şirkətə geri döndük. Orada polis əməkdaşları tərəfindən baxış keçirildi və haqqımızdakı şikayət öz əksini tapmadı. Bizdən kafedə izahat aldıqdan sonra sürücünü buraxdılar. Mən də gecə yarısı Bakıya qayıtdım.

Başımıza gətirdikləri bu qədər oyunlara rəğmən ödədiyim məbləği mənə qaytarmırlar. Orxanla Nəriman deyir ki, pulu yemişik, üstündən də su içmişik: “Get, əlin hara qəlbidir, ora qoy””...

Pərviz Fərəcovun sözlərinə görə, “Lebro” broyler şirkətinin əsl (qeyri-rəsmi) sahibi millət vəkili İqbal Məmmədovdur. İdarəçilik edən Nəriman və Orxan isə qardaşı oğlanlarıdır.

Yəqin bu səbəbdəndir ki, Nəriman və Orxan adlı şəxs vətəndaşa qarşı etdiyi haqsızlıq azmış kimi, kobudluq da göstərir...

“Lebro” broyler məhsullarının internet reklamlarından belə çıxır ki, sözügedən şirkət heç də alıcılarını aldatmayıb. Çünki şirkətin reklam fotosunda “qoxusu aləmi gəzər” sözləri yazılıb ki, zatən Pərviz Fərəcov da məhz bu səbəbdən malları geri iadə etmək istəyir...

Bir də “hər gün marketlərə yeni məhsul çatdırırıq” ifadəsi...

Görünür, doğma yurdunun təbiəti deputat İqbal Məmmədovu özünə çox bağlayıb ki, Lerik rayonunda biznesini böyütməyə qərar verib. Mətbuatda gedən məlumata görə, orada daha bir zavodu - ən müasir texnologiyalarla yem zavodunu da artıq işə salıb.

Onu da qeyd edək ki, təbii olaraq, bütün bu əmlakların deputatın özünün adına olması mümkün deyil...

Şikayətçi Pərviz Fərəcov uzun müddətdir ki, zəhmətlə qazandığı halal pulunu sözügedən iki şəxsdən geri ala bilmədiyini deyir. O, hüquq-mühafizə orqanlarından ona hüquqlarını bərpa etməkdə köməklik göstərmələrini xahiş edir.

**P.S.** Məsələ ilə bağlı yazıda adıçəkilən şəxslər də öz mövqeyini söyləyə bilər.

Nigar Orucova

# Səfirliyimizə hücumun müəmmalı gizlinləri...

## Cəmiyyətdən gizlədilən detallar kimin xeyirinə işləyir?

Bugünlərdə Azərbaycan və İran mediasının gündəmini 27 yanvar tarixində, səhər saatlarında ölkəmizin İrandakı səfirliyinə qarşı edilən terror hücumu barədə məlumatlar zəbt edib. Azərbaycan mediası bunu terror aktı, İran KİV-ləri isə ailə zəminində törədilmiş cinayət adlandırır. Əslində isə hadisənin müəmmalarla dolu olduğunu görmək üçün heç peşəkarlığa da ehtiyac yoxdur..

Əvvəla ondan başlayaq ki, hadisə hqqında verilən məlumatlarda və yayılan video-çarxlarda kifayət qədər uyğunsuzlular və anlaşılmazlılar var. Uyğunsuzluqlar həm Azərbaycan hökumətinin, həm də İran hökumətinin yaydığı informasiyalarda öz əksini tapır. Birinci uyğunsuzluğu Tehranın polis rəyisi, briqada generalı Sərdar Hüseyn Rəhiminin açıqlamasınd müşahidə etdik. Onun sözlərinə görə, hücum edən şəxs iki azyaşlı uşağı ilə birlikdə səfirliyə daxil olub. Polis rəisinin fikrincə, istintaqın ilkin versiyasına görə, hadisə şəxsi motivlidir və həmin şəxsin ailə problemləri var. Azərbaycan səfirliyinin yaydığı kadrlarda yalnız bir nəfər terrorçü görünür. Lakin polis rəisinin qeyd etdiyi, hücumçunun iki azyaşlı övladi kadrlarda görünmür. Bu yerdə onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan səfirliyinin yaydığı video-çarx da orjinal deyil. Məsələn, 08.32-də terrorçu səfirliyə daxil olur, 08.36-da o, səfirlikdən çıxarılır və 08.37-də terrorçü yenidən səfirliyə daxil olmağa cəhd göstərir. Video-çarx bu yerdə kəsilir və vaxt 08.50-dən başlayır. Həmin vaxt terrorçü Yasin Hüseyinzdə artıq maşının səfirlik mşınından kənarlaşdırmış şəkildə görünür və o, səfirlik maşınını yandırmaqla məsğul olur. Arada kəsilən 13 dəqiqə ərzində nələrin baş verdiyi kadırlarda görünmür. Verilən məlumata görə Yaşın Hüseyinzdə yenidən səfirliyə daxil olub, onu ikinci dəfə səfirliyin mühafizə xidməti bayıra atıb. Yalnız bundan sonra terrorçu səfirlik maşınını yandırmaq qərarına gəlir. Bununla yanaşı, kadırlarda ani olaraq görünür ki, hücumçu tək deyil, onun köməkciləri var. Lakin nə İran tərəfi, nə də Azərbaycan tərəfi bu barədə heç nə demir.

Xüsusi maraq kəsb edən detallardan biri də Azərbaycan səfirliyinin mühafizəçisi, terrorçunu tutub bayıra atdığı kadırlarda əks olunan, ağköynək əməkdaş da Yasin Hüseyinzadənin bir nəfər ailə üzvü ilə birlikdə olduğunu deyir. Lakin Azərbaycan səfirliyinin yaydığı kadırların heç birində terrorçünün ailə üzvü görünmür. Fikrimizcə, səfirlik kameralarından götrülən bütün görüntülər kəsilmədən ictimaiyyətə təqdim edilməli və buna uyğun da açıqlamalar verilməli, araşdırmlar aparılmalıdır.

Kadrlarda diqqət çəkən bir məqam da, səfirliyi mühafizə etməli olan Tehranın polis nəfərinin hərəkətlərdir. Polis nəfəri baş verənləri müşahidə edir və kiməsə zəng edərək danışır. Bundan sonra isə ümumiyyətlə, ərazini tərk edir. Bakıda istənilən səfirliyə, o cümlədən də İran İslam Respublikasının səfirliyinə yaxınlaşarkən birinci adamı silahlı Azərbaycan polisi qarşılayır. İran polisi ən azı terrorçunu üzərindəki yüngül silahla zərərsizləşdirə bilərdi. Amma kadrlardan belə görünür ki, polis bu fikrə düşmür, heç terrorçu da polisi zərərsizləşdirmək barədə düşünmür. Sanki terrorçu əvvəlcədən bilirmiş ki, Tehranın polis nəfəri ona mane olmayacaq. Əks halda terrorçu səfirlik mühafizəsini yarmaq üçün birinci növbədə polisi zərərsizləşdirməli idi. Bu da çox şübhəli məqamlardan biridir. Hələ o da dəqiqləşdirilməlidir ki, həmin gün mühafizə xidmətinə çıxan polis nəfəri silahlı olub, yoxsa yox. Bəlkə də mühfizə polisi silahsız olub. Çünki polis silaha əl atmalı olduğu halda, telefonla kiməsə zəng edir. Bu məsələlərə İran polisi və İran hökuməti cavab verməlidir.

Bir məqamı da diqqətə çatdırmaq istərdik ki, Yasın Hüseynzadə həbs ediləndən dərhal sonra İranın "Səhər" televiziyasına "müsahibə" verib. Yayılan görüntülər qeyri-peşəkar çəkilşdir, üstəgəl, müsahibin üzü xüsusi proqramla örtülür. Ona görə də terrorçunun mimikası görünmür ki, onun azərbaycan dilində səsləndirdiyi sözləri özü dediyi və ya səsin kadra montaj edildiyi hiss olunsun. Həmin görüntülərdə Yasin Hüseynzadə deyir ki, iki il əvvəl həyat yoldaşı səfirliyə muraciət edib və bir daha geri qayıtmayıb. Guya o, namusunu qoruya, həyat yoldaşını səfirlikdən xilas edə bilmədiyi üçün bu hücumu edib: *"Azad buraxsınlar, özü bilər, burda yaşayar, yaşayar, yaşamaz onu kimdi burda tutub saxlayan? Bu işdə azərbaycanın xüsusi xidmət orqanlarının əli var"*




Qeyd edim ki, sözügedən müsahibə də tam mətinlə təqdim edilmir, gah Azərbaycan, gah fars dilində eşidilən danışıq qarışıq formada təqdim edilir. Bu müsahibənin tam mətinlə təqdim edilməməsi də onu göstərir ki, orada Yasın Hüseynzadə İran hökumətinin maraqlarına uyğun olmayan sözlər işlədib. Ona görə də müsahibənin yalnız İran hökumətinin marağına uyğun gələn hissəsi təqdim edilib.

Lakin Yasın Hüseynzadənin hücim zananı yanında olduğu deyilən qızı İranın "Səhər" televizyasına müshibəsində bildirir ki, anası Azərbaycan səfirliyində deyil, Azərbaycandadır. Xanım qeyd edir ki, səkkiz gün əvvəl anası Gülnar Əliyeva ilə danışıb. Buradan aydın olur ki, Yasın Hüseynzadənin arvadının Azərbaycan səfirliyində olduğunu zənn etməsi mümkün deyil. Çünki onun qızı terrorçunun həyat yoldaşı Gülnar Əliyevanın Azərbaycanda olduğunu bilirsə, deməli o, özü də bu barədə məlumatlıdır.

Göründüyu kimi, bu məsələdə həm İran tərəfinin, həm də Azərbaycan hökumətinin gizlətdiyi məqamlar kifayət qədərdir. Cünki Azərbaycanın İrandakı səfirliyinin kamera görüntülərini bizimkilər, Yasın Hüseynzadənin müsahibəsini isə İran hökuməti qayçılayaraq, üstündə işləyərək təqdim edir.

Bu hadisənin davamı olaraq Azərbaycan hökumətinin atdığı addımlar onu göstərir ki, İranın gizlətdiyi məqamlar daha çox əhəmiyyət kəsb edir. Adətən, səfirliklərə qarşi hücumların arxasında yerli hökumətin dayanması ehtimal edilmirsə, səfir və hadisə şahidləri sorğu-sual məqsədi ilə ölkəyə geri çağrılır və səfirlik müvəkkil şəxs vasitəsi ilə fəaliyyətini davam etdirir. Lakin Azərbaycan hökuməti artıq özünün İrandakı fövqaladə və səlahiyyətli səfirliyini boşaltdı. Bu o deməkdir ki, artıq Azərbaycan Respublikası İran İslam Respublikasına etimad göstərmir, öz səlahiyyətli nümayəndə kərinin həyatını ona etibar etmir. Bu həm də Azərbaycanla İran arasında diplomatik münasibətkərin kəsilməsini hədəfləyən perspektivi proqnozlaşdırmağa əsas verir.

Bütün bunlarla yanaşı, biz Azərbaycan rəsmilərinin İran hökumətinə qarşı kəskin ifadələrin, ittahamların səslləndirilməsinin şahidi olmuruq. Əslində səfirliyini boşaldan ölkənin rəhbərliyi bunun səbəbini açiqlamalı və qarşı tərəfi buna səbəb olan əməllərinə görə tənqid edməlidir. Amma biz Azərbaycan hökumətindən "qınaq" ifadəsindən başqa heç nə eşitmirik. Yalnız hakimiyyət tərəfindən idarə edilən media qrumları İranı ittiham və tənqid edir. Hansı ki, onlar da bizim kimi, hadisənin pərdəarxası detalları barədə tam məlumatlı deyil. Bu da yəqin ki, hadisə barədə hansısa gizlinlərdən xəbər verir.

**Sonda qeyd edək ki, hər iki ölkə hökumətinin qeyri-şəffaf fəaliyyəti bütün proseslərdə olduğu kimi, bu hadisə və onun ətrafında cərəyan edən olaylar da özünü çilpaq şəkildə biruzə verir.**



Akif Nəsirli

# Ssenarist və rejissorların məqsədləri nədir?

Qarşıdan milli televiziyamızın yaranmasının ildönümü gəlir. İlk dəfə xalq artisti Nəcibə Məlikova ”Göstərir Bakı” kəlməsi ilə televiziyanın fəaliyyətə başladığını elan edib. Milli televiziyamızda İlk film kimi ”Bəxtiyar” filmi nümayiş olunub. Və beləliklə, Azərbaycanda ilk televiziya öz fəaliyyətinə başlayıb. Yarandığı gündən televiziyanın əsas missiyası dövlətə və xalqa xidmət olub. Başlanğıc heç də asan deyildi, böyük çətinliklər ortaya çıxırdı. Xüsusən də peşəkar kadrların çatışmazlığı şəraitində televiziyanın fəaliyyətini davam etdirmək çətin idi. Televiziyaya radio və qəzetlərdən mütəxəssislər dəvət olunurdu, lakin yenə də kadr çatışmazlığı yaşanırdı.

Televiziya tam fərqli, yeni bir sahə olduğundan burada təcrübəli işçilərə çox böyük ehtiyac vardı. Lakin o zaman bu sahə üzrə ixtisaslı kadrlar tapmaq müşkül məsələ idi. Zaman keçdikcə, milli televiziyamız da öz komandasını formalaşdıra bildi.

Sovetlər dönəmində xalqın dünyagörüşü və bədii-estetik zövqünün formalaşmasında əsaslı rol oynayan televiziya Azərbaycanda da çətin və mürəkkəb inkişaf yolu keçərək, tədricən kütləvi əxlaq və xarakter psixologiyasından milli dirçəliş, oyanış düşüncəsinə çevrilib. Əvvəl ”ev kinosu” kimi dəyərləndirilən televiziya inkişaf etdikcə cəmiyyətin ictimai-siyasi, mədəni həyatının bir parçasına çevrildi. İnsanların məlumatlandırılması, maarifləndirilməsi və əyləndirilməsi funksiyalarını uğurla üzərinə götürdü. Məsələn, 1991-ci ilin çox diqqət çəkən verilişlərindən biri ***"Televiziya tamaşaçılarının suallarına cavab verirlər"*** adlanırdı. Bütün bu veriliş və proqramlarla milli televiziya xalqın həyatının bir parçasına çevrilmişdi.

Bir sıra sənət növlərinin sintezindən yaranan normal filmlər də insana zövq verməklə bərabər həm də informasiya verirdi. Bütün parametrlərə uyğun çəkilən filmlərin maarifləndirici imkanları çox geniş idi. Görürsünüz, bura qədər keçmiş zamanda yazıram...

Gəlin görək, bu gün də milli televiziyamız eyni missiya və amalla çalışırmı? Və teledebatlar, tok-şoularlar milli ruhun möhkəmlənməsinə xidmət edirmi?

Bu fikirləri demək olar ki, hər gün eşidirsiniz, yeni heç nə demiyəcəm. Sadəcə televiziyanı bərbad edən seriallardan və onların ərsəyə gəlməsində başlıca rolu olan ssenaristlərdən danışacam.

Məşhur Kanadalı psixoloq, sosial öyrənmə və özünə fay-dalılıq nəzəriyyəsi işi üzrə tanınan Albert Bandero deyir ki, uşaqların və yeniyetmələrin televiziya filmləri və seriallarındakı modellərin emosional reaksiyalarından təsirlənərək yeni davranış tərzi götürdükləri diqqət çəkib.

Televiziya proqramlarında, xüsusilə də seriallarda baş rol ifaçısı kimi önəmli rolları oynayan şəxsiyyət və xarakterlərin izləyicilər tərəfindən örnək alınması, o modelə uyğun davranış və vərdişlərin yaranması, ona bənzəməyə çalışmaları qeydə alınıb.

Amma və lakin...

Gəlin görək, bizdə bu sahədə vəziyyət necədir. Nə hikmətdisə hər tv serialında bir aldatmaq epizodu, kadrı, söhbəti olur. Bu istər Azərbaycan tv seriallarında olsun, istərsə də yabancı, mütləq olur. Ən maraqlısı da odur ki aldadan tərəf deyil, aldadılan tərəfin xarakteri ssenarist tərəfindən elə pis qələmə alınır ki, onlar sanki bununla xalqa haqqedirmiş mesajını verir. Əminəm ki bunun nə demək olduğunu yaxşı dərk edirsiz.

Nə olur-olsun pislik, bir qadının yaxud kişinin aldadılmasını haqqermiş kimi göstərməkdir məqsəd. Hələ bu azmış kimi, ssenarist aldadan tərəfi elə təqdim edir ki, guya yumşaq qəlbli, xoş niyyətlidir. Bu yaraşıqlı, qəd-qamətli varlığı ssenarist əsla evyıxan kimi göstərmir. Mentalitetə bir bax. Başıboş izləyici də bu anormallığı dəstəkləyərək alqışlayır, bunun bir faciə olduğunu sanki anlamır.

Mən internet sürətlənən dövrdən demək olar ki, tv-yə baxmıram. Ancaq istər sosial şəbəkələrdə, istər ətrafda məcbur formada bəzi dialoqlar qısa da olsa qarşıma çıxır və nə qədər təhlükəli olduğunu sezirəm.



Çağrılmayan qonaq sayılan telekanalların evlərə gətirdiyi bu seriallarla bağlı narahatçılıq əslində çoxdan başlayıb. Həqiqətən belə seriallar bəzi insanların həyatlarının ayrılmaz hissəsinə çevrilib. Bu təkcə evdar qadınlara və yaxud yaşlı insanlara aid deyil. Bu «xəstəliyə» kişili-qadınlı, qocalı-cavanlı çoxları tutulub. Hətta yuxarıda qeyd etdiyim psixoloq Albert Bandero dediyi kimi bu, yeniyetmə və gənclərin dünya görüşünə, əxlaqına, davranışına qədər təsir edir. Başa düşdüyüm və gəldiyim qənaət budur ki, Azərbaycanın teleməkanında bu tip ssenarilər əsasında çəkilmiş serialların yayımlanması mümkünsüzdür. Çünki Azərbaycanda milli serialın uğurlu çəkilişi, geniş satışı və ciddi reytinq qazanmasına hələ təəssüf ki, çox var. Bəlkə də heç vaxt olmayacaq. Bunu zaman göstərəcək.

Məhz bu boşluğun nəticəsidir ki, bir zamanlar Cənubi Amerika, son dövrlər isə Türkiyə və Hindistan filmləri Azərbaycanda hələ də yayımlanır. Əcnəbi teleseriallarının, ümumilikdə, filmlərin bizim tv-lərdə nümayiş olunması faciəli hadisə deyil. Bəla burasındadır ki, bu acı bağırsaq kimi uzanan ssenarilərin yerinə normal bir sənət nümunəsi təqdim olunsa daha yaxşı olar. Bu filmlər yalnız ucuz olduğuna görə Azərbaycan bazarına çox asanlıqla daxil ola biliblər.

Telekanallara nə lazımdır?

İlk baxışda hər şey normal görünür. Azərbaycan dilinə tərcümə olunmuş seriallar var, auditoriya var, serialın nümayişi zamanı kifayət qədər reklam var. Belə demək mümkünsə onlar efiri doldurmaqla bərabər həm də reklamdan yaxşı qazanırlar. Burada itirən isə bilərəkdən və yaxud bilməyərəkdən həmin ucuz filmlərin aludəçisinə çevrilənlər olur. Bunun fəsadları artıq hiss olunmaqdadır.

Bəs onda bu yazıq xalq nə etsin? Özümüzün məhsulumuz yetərli deyil, əcnəbilərin çəkdikləri də ki belə...

Teleseriallarımız o qədər bərbad gündədir ki, vallah baxanda adam xəstələnir, şəxsən hiss edirəm ki, analiz üçün baxsam da belə, yenə də immunitetim zəyifləyir izlədikcə. Burada ssenaridən tutmuş aktyor seçiminə qədər bütün məqamlarda qeyri-peşəkar yanaşma var. Əsla hansısa bir kino məktəbi keçən kadrlara rast gəlinmir. Bilirik ki, iqtisadi çətinliklərə görə bəzi istedadlı insanlar bu sahədən uzaqlaşdılar. Yəni aldığı məvacib onların yaşamasına uyğun, sərfəli deyildi. Ancaq bütün bunlar çox ciddi məsələ olsa da tamaşaçını maraqlandırmır. Tamaşaçını maraqlandıran yalnız tv-də nümayiş olunan son məhsuldur. Bu məhsul isə göz qabağındadır.

Amma heç unutmuruq ki, bizim ölməz sənətkarlarımızın iştirakilə çox yaxşı milli kino ənənələrimiz olub. Və etiraf edək ki, həmin filmlər böyük bir nəslin yetişməsində çox böyük rol oynayıb. Dəyərli sənətkarımız Ramiz Əzizbəylinin çəkdiyi “Bəxt üzüyü” bədii filmi 20 ildən atrıqdır ki, nümayiş etdirilir. Tamaşaçı məmuniyyətlə hər dəfə bu filmə baxır. İndi film çəkən şəxslər bu barədə düşünməlidirlər. Sanballı filmlər, seriallar qoymaq lazımdır ortaya. Ona görə də bu iş peşəkarlara həvalə edilməlidir. Azərbaycanın kino iqtisadiyyatının formalaşmaması bu sahədə problemləri dərinləşdirir.

**Kino sahəsində ssenari yazmaqdan, aktyor seçimindən tutmuş menecment, marketinq işinə qədər bütün bu məsələlər yenidən araşdırılmalıdır. Nəhayət kino iqtisadiyyatının formalaşması və inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır.**



*Şahnaz Salehqızı*

## Hikmət Rəhimov: “Prezidentin ayırdığı 6 milyonu yedilər”



**Aktyor, rejissor Hikmət Rəhimovun “Dikdaban” verilişindəki açıqlaması gündəm olub.**

Aktyor verilişdə illər əvvəl Prezident İlham Əliyev tərəfindən serialların inkişafına dəstək məqsədilə ayırılan 6 milyon manat vəsaitin mənimsədildiyini bildirib: ***“Bir neçə il əvvəl ölkə başçısı serial sektoruna büdcə ayırdı. Heç nə, pulu basıb yedilər, serial da ortaya çıxmadı. Görürlər ki, iş də getmir...Onda o büdcəni niyə ayırmalıdırlar ki?! 6 milyon büdcə ayrılmışdı ki, serialların inkişafına hissə-hissə bölünsün. O pul nə böləndü, nə bir şey olundu, kiminsə əlinə düşdü. Birini dəqiq bilirəm, adını çəkmirəm. 6 milyon Azərbaycanın serial sektoru üçün pis pul deyildi. Bunu da ayırdılar ki, bir az özünüzə gəlin, dirçəlin. Kimsə də pulu götürüb qoydu cibinə, qoy tək mən dirçəlim. Ona görə düzəlmədi”.***

# Biz hansı zamanda yaşayırıq *yoxsa,* insanlar zamana görə dəyişir?

**Rusların belə bir məsəli var: "Rıba jivyot qde qlubje, çelovek qde luçje", yəni balıq dərində, insan harada daha yaxşıdır orada yaşayır. Bu baxımdan hazırda insan yaşamının bizim arzuladığımız kimi olan çox yerlər var, amma məmləkətimiz o sırada yoxdur. Niyə və nə üçün? Bu yazımda sizinlə bu barədə düşüncələrimi bölüşmək istəyirəm.**

Məlumdur ki, müasir dünyamızın ən dəbdəbəli və möhtəşəm yaşam yerlərindən biri də Dubay əmirliyidir. Öz zənginliyi ilə göz qamaşdıran bu məkanda demək olar ki, kasıb insan yoxdur. Əvvəllər ərəb dünyasından söz düşəndə bizə elə gəlirdi ki, onlar müasir dünyanın inkişafından, sivilizasiyadan çox geridə qalırlar. Bəziləri bunu hətta islam dini ilə əlaqələndirməyə çalışırdılar. Lakin son zamanlar ərəb dölətlərinə səfər edənlərin danışdıqları, gözümüzün önünə tamam başqa bir mənzərəni gətirir. Dubay bu gün öz möhtəşəmliyi ilə onların hamısından seçilir. Buna görə də, hazırda Dubay bütün dünyanın maraq göstərdiyi bir məkana çevrilib. Axı nədir bu inkişafın sirri? Bu suala cavab verən Dubay şeyxi Mohammad əl Rəşid deyir:" Mənim babam dəvədə gəzib, mənim atam da dəvədə gəzib, mən "Mersedes" sürürəm. Oğlum "Lend Rover" sürür, lakin mənim nəticələrim dəvədə gəzəcəklər".



Nə üçün belə düşünürsünüz?

"Çətin, ağır zamanlar güclü insanlar, şəxsiyyətlər yetişdirir, güclü insanlar da yaxşı dövran yaradır. Yaxşı dövran, yüksək rifah isə zəif insanlar yaradır. Zəif insanlar da ağır və çətin zamanlar yaradır.(Yəni böyük insanların yaratdıqlarını çapıb- talayaraq dövləti və milləti zəlil və səfil gününə salaraq məhv edir - şərh müəllifindir). Çoxları başa düşmək istəmirlər ki, insanlara döyüşçü-mübariz ruhunu aşılamaq lazımdır, parazit yox."

Haşiyə:-Bu sözlər məndə başqa bir böyük sərkərdənin, 2-ci dünya savaşında SSRİ-nin faşizm üzərində qələbə çalmasında müstəsna xidmətləri olmuş marşal Jukovun sözlərini xatırlatdı. Ölüm yatağında olan Jukova sual verirlər ki, sizcə, 3-cü dünya müharibəsində hansı silahlardan istifadə edəcəklər? Sərkərdə savab verir ki, 3-cü dünya müharibəsini deyə bilmərəm, amma 4-cü dünya müharibəsində mütləq qılınc, ox və kamanla vuruşacaqlar.

İndi isə keçək əsas məsələyə. Bu da heç kimə sirr deyil ki, bir çoxlarının gözündə Azərbaycan da neft və milyonlar səltənətidir. Belədirsə, nə üçün bu məmləkətdə insanların 80 faizi dilənçi kökündə yaşayır? Yaxud, deyə bilərsinizmi ki, biz hansı zamanda yaşayırıq-böyük şəxsiyyətlərin yaratdığı güclü dönəmdə, yoxsa onların sələflərinin çapıb-talayaraq viran qoyduqları bir dönəmdə? Yaddaşınızı təzələmək üçün bir xatırlatmanı da diqqətinizə çatdırım. Bu gün dövlətin, millətin bütün sərvətlərini ata malı kimi çapıb- talayan oliqarx-məmurların 30 il əvvəl heç "zapı"ları (ZAZ) da yox idi. İndi onların övladları, nəvə-nəticələri "Lombargini", "Buqatti" kimi dəyəri milyonlarla ölçülən avtomobillər sürürlər. Hələ bir iddia da edirlər ki, bu pulları halal yolla qazanıblar. Keçmiş MTN generallarının və həbsdə olan məmurların iddialarına nəzər yetirsəniz hər şey gün kimi ortaya çıxacaq. Lap deyək ki, həmin məmur, deputat, yaxud general ayda 2-3 min manat maaş alıb, onların vəzifədə olduqları müddət də deyək ki 20 ildir. Maaşını 3 min manatdan hesablasaq bu ildə 36 min minat edir. 20 ildə bu adamlar yeyib içməsələr, geyinib-keçinməsələr cəmi 720 min manat toplamış olurlar. Amma onların təkcə daşınmaz əmlaklarının dəyəri milyonları keçir, bu da sənə halallıq.

Bir daha soruşuram biz hansı zamanda yaşayırıq? Güclu şəxslərin zamanıdırsa, nə üçün səfalət içində yaşayırıq? Ağır və çətn zamanda yaşayırıqsa, nə üçün güclü insanlar yetişmir bu məmləkətdə? Və bu anlaşılmaz zaman nə qədər çəkəcək?

Yaxud, bu məmur talançılığına nə zaman son qoyulacaq? Göründüyü kimi, hökumətin korrupsiyaya qarşı mübarizə adı altında gördüyü işlər heç bir nəticə vermir. Toxu gedir, yerinə acı gəlir, daha çox talayır.

Müasir Azərbaycan dövləti heç kimin dədəsindən, babasından miras qalan mülk deyil. Bu dövlət xalqa məxsusdur, Konstitusiyamız da bu haqqı bizə tanıyır. Belə olduğu təqdirdə, biz nə üçün haqq etdiyimizi bu quldurların əlindən ala bilmirik?

Ölkəmizdə mövcud olan bütün pisliklərə qarşı təkcə hökumət və dövlət təmsilçilərimi mübarizə aparmalıdırlar? Bu ümumxalq işidir. 44 günlük Vətən müharibəsində olduğu kimi, bir yumruq kimi birləşərək bu quldur-talançı məmurlara qarşı da mübarizə aparmalıyıq. Dözumlü xalq olduğumuz yetər daha.

***Yusif Seyid***

# Müasir mediamızın iç üzü

## Azərbaycan mediası necə buyruq quluna çevrildi?

Müasir Azərbaycan mediasının bugünkü durumu, təkcə namuslu, haqq sözə dəyər verən jurnalistləri deyil, eyni zamanda bütün ölkə əhalisini narahat etməlidir. Çünki azad, müstəqil mediası olmayan ölkə heç vaxt inkişaf edə bilməz. Cəmiyyətin aynası hesab olunan medianı susdurmaq, onu cəmiyyətdən təcrid etmək isə ölkədə xaos yarada bilər.

Yaddaşınızı köməyə çağırsanız görəcəksiniz ki, bir vaxtlar sözü heç yana çatmayan vətəndaş, son ümid yeri kimi redaksiyaların qapısını döyərdi. Çünki jurnalist sözü hər yerdə keçərli idi. Bu proses MŞ (Mətbuat Şurası) və KİVDF (Kütləvi informasiya vasitələrinə dövlət dəstəyi fondu) yaradılana qədər davam etdi. Açıq etiraf etməliyəm ki, bu qurumların yaranması ilə Azərbaycan mediasının tənəzzülü başladı. Bir çox müstəqil qəzetlərin fəaliyyəti müxtəlif səbəblər üzündən tam olaraq dayandırıldı. Başqa bir qrup qəzetlər MŞ-nın "bığı altından" keçmədikləri üçün reket elan olundu. Dövlətdən dəstək (əslində, susqunluq üçün verilən rüşvət) alan başqa bir qrup qəzetlər isə ələbaxımlığa sövq edilərək, müsqəqilliklərini itirmiş oldular. Bununla da, ümumiyyətlə ölkəmizdə müstəqil medianın fəaliyyətinə son qoyulmuş oldu. Məlumdur ki, pul verən, həm də öz sifarişini verir, bu bir aksiomdur.

Beləliklə, Azərbaycan mediası da məmurların girovuna çevrildi. Müxtəlif



nazirliklərin, komitələrin, icra hakimiyyətlərinin həmin qurumlarla birgə keçirdikləri müsabiqələr də bu planın tərkib hissəsinə çevrildi və bu, açığı bir məzhəkə idi. Müstəqil medianın hədəfində olan bir çox qrumlar MŞ və KİVDF ilə birgə müsabiqələr keçirməklə (özlərini təriflətməklə) bir növ özlərinin bəd əməllərinə həqiqət və reallıq donu geyindirməyə çalışırdılar. Bu da insanların gözündən qaçmır, necə deyərlər "elin gözü tərəzidir" axı. Bu səbəbdən də, qəzetlərin tirajı kəskin aşağı düşür, mədhiyyələr yayan qəzetləri heç kim almır. Bunlar isə özlərinə haqq qazandırmaq üçün günahı elektron medianın və saytların üzərinə atır. MŞ və KİVDF-nin keçirdiyi müsabiqələrdə ən azından 80-100 jurnalist iştirak edir və tərif yazır, məmurlar da bunun müqabilində onlardan 10-15 nəfərinə mükafat verir. Bunun da adı olur medianın inkişafına dövlət dəstəyi.

Dövlət demişkən, dövlət nədir? Toplum olmazsa, dövlət ola bilərmi? Deyəsəksiniz ki, yox, ola bilməz. Belə olduğu təqdirdə, toplumun yaratdığı dövlət toplumun iradəsinin əksinə qanunlar qəbul edə bilərmi? Bilməz! Edir axı! Amma və lakin...

Məsələn, toplum illərdir ölkədə pensiya yaşının artırılmasına etiraz edir. Pensiyaların məbləğinin isə artırılmasını tələb edir, Amma və lakin...

Belə olduğu təqdirdə toplum nə etməlidir?

Normal cəmiyyətlərdə bütün bu sualların cavabını media axtarıb tapmalı və cəmiyyətə təqdim etməlidir. Çünki media təkcə cəmiyyətin güzgüsü deyil, həm də bir növ hökumətlə toplum arasında körpü rolunu yerinə yetirməlidir. Yetirə bilirmi? Yox. Onda belə meldia kimə lazımdır? Digər tərəfdən cəmi min nüsxə çap olunan və heç kimin əlinə almadığı müasir medianın cəmiyyətə təsir gücü nə qədər olar?

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında qeyd edib ki, jurnalistlər mənim dostlarımdır. Mən bilmədiyim bir çox şeyləri mediadan öyrənirəm. Bugünkü media Prezidentə hansı vacib informasiyanı verə bilər ki, hamısı hansısa məmurun təmsilçisinə çevrilib. Dost dostuna yalan danışmaz. Bu dostluğun təməl prinsiplərindən biridir. Bu gün dövlətdən dəstək alan media isə reallıqdan çox uzaqdır və reallığı əks etdirmək iqtidarında deyil. Özünə müstəqil deyən media qurumları da, artıq çoxdan cəmiyyətdən kənar vəziyyətə salınıblar. Məcburən, zorən, yaxud könüllü fərq etməz...

Yeni yaradılan MİA (Medianın inkişafı Agentliyi) isə yaradılan gündən Azərbaycan jurnalistlərinə yazı yazmaq dərsi keçməklə məşğuldur. Əgər siz həqiqətən də, Azərbaycanda müstəqil medianın inkişafını istəyirsinizsə, onda "Müxalifət","Azadlıq", "Paralel" və bu kimi digər qəzetlərin qabağına qoyduğunuz səddi götürməlisiniz. Onda MİA da görər ki, Azərbaycan jurnalistlərinə dərs demək lazım deyil, bizim jurnalistlərimiz istənilən ölkənin jurnalistlərinə dərs deyərlər sözün bütün mənalarında.

Əslində, bu dərs demək məsələsinin də bir çox qaranlıq məqamları var, qalsın gələn dəfəyə...

***Yusif***

# AZƏRBAYCANA SIZAN 3500 İRAN AGENTİ İFŞA EDİLİB...

## Səfirliyə hücum edən terrorçu ilə bağlı iddialar

**İran kəşfiyyatının ilahiyyat, siyasət, iqtisadiyyat, mədəniyyət, təhlükəsizlik, mülki və hərbi sahələrdə Tehrana xidmət etmək üçün 3500 şiə informatoru Azərbaycanda yerləşdirdiyi iddia edilib. Bu şəxslər azərbaycanlı qadınlarla evlənərək Bakıya sızıblar. Teleqraf.com xəbər verir ki, bu barədə "Türkiyə" qəzeti yazır.**

Türk nəşri qeyd edir ki, Azərbaycan kəşfiyyatı 1997-2011-ci illərdə xüsusi proqram çərçivəsində baş vermiş sızmanı aşkarlayıb və dindirilən İran agentləri cinayətlərini etiraf ediblər: *"İranın sızma əməliyyatı və casuslarının deşifrə edilməsi ilə 700 şiə informatorun Azərbaycandan qaçdığı üzə çıxıb.*

*Azərbaycan mənbələrindən əldə etdiyimiz məlumata görə, projeyə 1996-cı ildə Tehranda "Azərbaycan Masası" adlı xüsusi bölmənin yaradılması ilə start verilib. İlk iş olaraq İranın kəşfiyyat xidməti "Şazimani İttilaat" və SEPAH əməkdaşlarından 4000 kəşfiyyatçı seçilib və bu şəxslər Azərbaycanın coğrafiyası, dili, mədəniyyəti ilə bağlı xüsusi təlimlərdən keçiblər. İranın Azərbaycandakı səfirliyindən Tehran rejiminə yaxın ailələrlə bağlı genişmiqyaslı araşdırma tələb edilib. Bundan sonra müəyyən edilən isimlərlə əlaqə saxlanılaraq evlilik mərhələsinə başlanılıb.*

*Azərbaycanın təhlükəsizlik mənbələri bildirirlər ki, tarixdə bu projenin başqa nümunəsi yoxdur. Yaxalanan iranlı informatorlar həyat yoldaşlarını kataloqdan seçdiklərini deyiblər. İran agentlərinin ilk işi azərbaycanlı arvadlarının "rəhbər" adlandırdıqları Xameneyiyə beyət etmələrini, ibadətlərini fars şiələri kimi yerinə yetirmələrini təmin etmək olub.*

*Müxtəlif kamuflyaj üsullarından istifadə edən agentlər Azərbaycanda məskunlaşdıqdan sonra onlara göstərilmiş istiqamətlər üzrə kəşfiyyat məlumatları toplamağa və bu informasiyaları Tehrana göndərməyə başlayıblar.*

*Azərbaycan qanunlarına əsasən evləndikdən 5 il sonra əldə etdiyi vətəndaşlıq hüquqları ilə daha geniş imkanlar qazanan İran agentlərinin missiyaları da dəyişdirilib. Vətəndaşlıq hüququ olanlar daha strateji sahələrə yönəldilib. Bəzi informatorlar ciddi kapitalla kommersiya sahəsinə cəlb olunarkən, digərləri mülki və hərbi, diplomatiya, siyasət, QHT, mədəniyyət, incəsənət və ilahiyyat kimi sektorlara sızıblar".*



"Türkiyə" qəzeti yazır ki, Azərbaycanın Tehrandakı səfirliyinə qanlı basqını həyata keçirən Yasin Hüseynzadənin də həmin komandadan olduğu müəyyən edilib: *"Hüseyinzadənin Urmiyada kitab satıcısı işləyən qardaşı Rəhman Hüseynzadənin azərbaycanlı qadınların tələyə salınması prosesində mühüm fiqur olduğu və SEPAH-ın həşfiyyat xidmətində xüsusi vəzifələrə sahib olduğu bildirilib".*

Professor Dönməz Əmrə baş verənlərlə bağlı nəşrə bildirib: *"Azərbaycan xalqı yüz illik rus əsarətində ağır dini təzyiqlərə məruz qalıb. Çünki türklərin öz orijinal keyfiyyətləri ilə qalması həm Rusiya, həm də İran tərəfi üçün ən böyük təhlükə kimi görünür. Olayın başqa bir ölçüsü türklərin duyğularını, ideyalarını, coğrafi bağlarını yenidən bərpa etmək üçün atılan addımlardır. Xüsusilə İran bunu öz varlığının sonu kimi görür. Bu səbəbdən bizə "ya dinsiz, ya şiə ol" dedilər və buna nail olmaq üçün hər cür cəhdi etdilər. İndi öz şifrələrimizə qayıtmağımız kənar qüvvələri əndişələndirir. Səfirliyə son hücum bunun bariz göstəricisidir".*

Türk nəşri əlavə edir: *"Azərbaycanın təhlükəsizlik mənbələri bildirirlər ki, yanvarın 27-də həyata keçirilən basqında səfirliyin bütün əməkdaşlarının öldürülməsi planlaşdırılıb. Azərbaycan diplomatlarının və mühafizəçilərinin müqaviməti bu planı alt-üst edib. Azərbaycanlı mühafizəçi avtomatlı qatilin üzərinə atılaraq, daha genişmiqyaslı qətliamın qarşısını alıb.*

*Azərbaycan mənbələri İran polisinin partlayan silahlara baxmayaraq Tehranın ən strateji nöqtəsinə 30 dəqiqə gəlmədiyi və qatilə məxsus avtomobilin bu müddətdə qapıda işlək vəziyyətdə dayandığını bildirirlər. Gərginlikdən sonra Azərbaycan hökuməti Tehran səfirliyini bağlayıb.*

*Diplomatik əlaqələr Təbriz konsulluğu vasitəsilə davam etdiriləcək. Bu addım bir tərəfdən İran rejiminə qarşı hiss olunan narahatlığı göstərmək, həm də Azərbaycan üçün əsas mərkəzin Güney Azərbaycan olması mesajı kimi şərh olunur".*

# Bu, İranda hakimiyyətdaxili qruplaşmaların işi ola bilər...



*"Əslində hadisənin araşdırılmasında Azərbaycan tərəfindən də təhqiqatçıların iştirakına şərait yaradılmalıydı. Lakin bu istiqamətdə də heç bir addım atılmayıb..."*

*"İran hakimiyyətinin rəsmi reaksiyası əsasən özünü ölkə prezidenti İbrahim Rəisinin Azərbaycan dövlət başçısı İlham Əliyevə zəngi ilə özünü büruzə verib. Yəqin ki, həmin telefon danışığında o, Azərbaycan rəhbərinə müəyyən izahat verib. Lakin həmin izahatın konkret nədən ibarət olduğunu bilmirik. Ancaq ümumilikdə belə görünür ki, İran dövlətinin mövqeyi məsələni ört-basdır edib üzərindən keçməkdən ibarətdir".*

Bu fikirləri açıqlamasında Milli İstiqlal partiyasının fəxri sədri Etibar Məmmədov söyləyib.

*"Hesab edirəm ki, İran tərəfi bu hadisəni məişət xarakterli bir olay kimi qələmə verməyə çalışır. Lakin bütün dəlillər onu göstərir ki, bu, öncədən hazırlanmış bir aksiyadır"*- deyə həmsöhbətimiz davamında bildirib.

*"Bəs əgər doğrudan da bu terakt İran planlaşdırıbsa, onun bundan məqsədi nədir, nəyə nail olmağa çalışır?"* sualını isə Etibar Məmmədov belə cavablandırıb: *"Məqsəd təbii ki, Azərbaycana gözdağı vermək, onu təhdid etməkdir. Bundan əlavə, bu, İranın öz hakimiyyəti daxilindəki qruplaşmalarının bir-birinə qarşı tədbirlərinin nəticəsi, tərkib hissəsi də ola bilər... Və təəssüf ki, indiyə qədər rəsmi Tehran diplomatik missiyamızın təhlükəsizliyinin təminatı ilə bağlı öhdəliklərinin yerinə yetirilməməsi haqda da ciddi izahat verməyib. Eyni zamanda əslində hadisənin araşdırılmasında Azərbaycan tərəfindən də təhqiqatçıların iştirakına şərait yaradılmalıydı. Lakin bu istiqamətdə də heç bir addım atılmayıb..."*

***Sultan Laçın***



## Hindistanın Azərbaycana qarşı çirkin oyunu ifşa edildi: Gizli yolla...

Ermənistan ordusunun zabiti Hindistandan alınan hərbi texnikalar haqda məlumatları düşmənə (Azərbaycan nəzərdə tutulur – red.) ötürüb.

Bu barədə Ermənistan Milli Təhlükəsizlik Xidməti məlumat yayıb.

Məlumatda qeyd edilir ki, Ermənistan vətəndaşı, Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin yüksək vəzifəli zabiti (kapitan) 2021-ci ilin əvvəlindən xarici xüsusi xidmət orqanlarının diqqətinə düşüb və onlar tərəfindən işə götürülüb.

İddia olunub ki, həmin şəxs "dövlət sirri" sayılan siyasi və hərbi məlumatları toplayaraq xarici xüsusi xidmət orqanlarına ötürüb. Ötürülən "məxfi məlumatlar" arasında Hindistandan alınmış silah və texnikaların sayı və fotoşəkilləri olduğu da bildirilib.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin İstintaq Şöbəsində başlanmış cinayət işi çərçivəsində axtarışlar aparılıb, adıçəkilən zabitə ittiham elan edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Hindistandan Ermənistana silah satışına dair iki ölkə arasında ilk anlaşmanın ötən il əldə edildiyi açıqlanmışdı. Müqavilənin ümumi dəyərinin 245 milyon dollar olduğu bildirilmişdi. Bu çərçivədə Hindistanın ilk dəfə olaraq Ermənistana silah göndərəcəyi iddia olunmuşdu.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin "düşmənə məxfi məlumat ötürmə" iddiasının isə gerçək olub-olmamasından asılı olmayaraq, Hindistanın daha əvvəl hansısa yolla Ermənistana silah və hərbi texnika göndərdiyini təsdiqləyir. Ermənistan tərəfi bununla ya bilərəkdən, ya da bilməyərəkdən Hindistanın Azərbaycana qarşı bu ölkəni ilk rəsmi anlaşmadan əvvəl silahlandırdığını ortaya qoyur. O vaxta qədər isə Ermənistan Hindistanın müştərisi sayılmırdı. Üstəgəl, bu ölkə hind dövlətinin ilk hərbi müştərilərindən hesab olunur.

***Mənsur Rağbətoğlu***

2 fevral 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru




## Şeyxin iranlı qardaşları niyə xain çıxdı?

**İran mollalarının doğma qardaşı ermənilərimiş**

Azərbaycanda İran molla rejiminin dayağı kimi tanıdığımız Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyx Allahşükür Paşazadə Tehranda Azərbaycan səfirliyinə qarşı baş verən terrordan sonra xeyli narahatdır.

Son günlər Azərbaycan mediasını izləyən hər bir insan İranın paytaxtı Tehranda səfirliyimizə edilən silahlı basqına QMİ-nin münasibətini öyrənməyə çox maraqlıdır. Ona görə də ölkə vətəndaşları QMİ-nin terror aktına daha sərt etiraz etməməsinə təəccüblənir.

Hazırda QMİ-nin ölkəmizdən daha çox İranın mənafeyinə xidmət etdiyi barədə cəmiyyətdə gəzən söz-söhbətlər heç də təsadüfi deyil. Artıq Tehranda Azərbaycan səfirliyinə silahlı basqın nəticəsində bir nəfərin şəhid olması və 2 nəfərin yaralanmasını bütün dünya kəskin qınayır, amma QMİ-nin terrora ciddi və kəskin etiraz səviyyəsində münasibət bildirməməsi ictimaiyyətin haqlı olduğunu ortaya qoyur.

Şeyxin iranlı qardaşlarının xain çıxmasının əsil səbəbisə, onların ermənilərlə doğmalığı imiş. Çünki Şeyx özü də etiraf edib ki, "İran mollalarının doğma qardaşları var imiş, biz ögey imişik"!

*Səfurə*

# İrandan "yatmış hücrələr"ə mesaj: Yeni terror dalğası

## Hədəf Zəngəzur dəhlizidir

"Erməni ASALA terror təşkilatının İran üçün nə qədər önəmli olduğunu bu cür tarixi məsələlərin içində olanlar bilir".

Bunu ABŞ-da fəaliyyət göstərən Türk-Amerika Təhlükəsizlik Fondunun (TASFO) rəhbəri Fatih Özonur deyib.

TASFO rəhbərinin Azərbaycanın İrandakı səfirliyinə terror hücumuna münasibəti belədir:

"Əlli il əvvəl – 1973-cü il yanvarın 27-də Kaliforniya ştatının Santa-Barbara şəhərində Türkiyənin Los-Ancelesdəki baş konsulu Məhmət Baydar və köməkçisi Bahadır Dəmir erməni terrorçu, daşnak Qurgen Yanikyan tərəfindən qətlə yetirilmişdi. Terrorçu cinayəti törətdikdən sonra erməni qəzetlərinin redaksiyalarına zəng edərək,




türklərə qarşı qanlı aktlara çağırış etmişdi. Üç qitənin 21 ölkəsində və 35 şəhərində yüzlərlə terror aktı törədən qlobal erməni terrorunun başladığı gündən yarım əsr sonra, yəni bu ilin yanvarın 23-də Azərbaycanın Tehrandakı səfirliyinə "Kalaşnikov"la hücum edildi. Azərbaycan səfirliyinin təhlükəsizlik əməkdaşı Orxan Əsgərov hücumda şəhid oldu.

Baş verənlərlə əlaqəli çoxsaylı suallar var. Məsələn, bu aktı həyata keçirənin əsl kimliyi niyə hələ də açıqlanmır, səbəb nədir? Ən önəmlisi, bu addımın 27 yanvar tarixinə rast gəlməsi təsadüfidirmi? Yoxsa Türkiyənin Türküstanda türk birliyinə nail olmaq səylərinə, xüsusilə İran rejiminin özünə "təhdid" kimi gördüyü Zəngəzur dəhlizinə qarşı yeni terror dalğasının başladılması üçün "yatmış hücrələr"ə bir mesajdırmı?

Ən qəribə məqamlardan biri də baş verənlərə İran rəsmilərinin geyindirmək istədikləri başqa libasdır. İran rəsmiləri hansı əsrdə yaşayırlar ki, dünya ictimaiyyətini ələ salırmış kimi üzərində "Molotov kokteyli", əlində "Kalaşnikov" olan aqressoru "iki uşağı ilə səfirliyə gəlmiş ailə problemi olan şəxs" kimi təqdim edir?! İranlı rəsmilər belə bir yalanın XXI əsrdə təkcə kameralar və mobil telefonlarla ifşa ediləcəyini bilməyəcək qədər geridə qalıblar?

Səfirliyə hücum edən şəxs aktı törətməzdən əvvəl öz avtomobili ilə qapının önündə duran Azərbaycan səfirliyinin xidməti avtomobilini vurur. Bunu da ona görə edir ki, səfirliyin işçiləri səs-küyü eşidib çölə çıxmaq üçün qapını açsınlar, o da bundan istifadə edərək, qanlı aktını həyata keçirsin. Bizim bildiyimiz budur ki, bir ölkənin səfirlik və baş konsulluğunu qorumaq məsuliyyətini daşıyan bir dövlətin polisi, mühafizəçisi həyatı bahasına olsa da, belə bir hücuma yerindəcə silahlı müdaxilə etməliydi. Amma tam əksini gördük. Azərbaycan səfirliyinin önündəki mühafizə postunda dayanmış polis və ya mühafizəçi olaya müdaxilə edtmək əvəzinə, oradan uzaqlaşır.

Səbəbi nədir, yoxsa bilmədiyimiz başqa bir şey var? Yoxsa təxmin etdiyimiz kimi bir "ailə məsələsi" yox, baş verəcəyi əvvəldən bilinən terror aktıdır? Ailə problemi olan və hər şeyi gözə alan bir şəxs çöldə gözləyər, bir ölkənin rəsmi qurumlarına və ya personalına hücum etməz. Əlbəttə, bu, bizim şəxsi düşüncəmizdir".

Fatih Özonur İran rejiminin erməni terror təşkilatları ilə əlaqələrinə də diqqət çəkib:

"Qurulduğu tarixdən bəri – 15 ildir erməni terror təşkilatları, terrorçuları və onların törətdikləri qanlı aktları araşdıran TASFO İran rəsmilərinin axmaq açıqlamalarının əksinə olaraq, bu olayın fərqli bir ölçüyə sahib olduğuna inanır.

Erməni ASALA terror təşkilatının İran üçün nə qədər önəmli olduğunu bu cür tarixi məsələlərin içində olanlar bilir.

İsrailin 1982-ci ildə Livanın cənubuna hücumundan sonra İranın erməni əhalisinin özəllikləri və sahib olduqları haqları nəzərə alan, ən önəmlisi, Amerikanı ortaq düşmən kimi görən ASALA terrorçuları İrana getmiş, bu ölkənin İraqla savaşında ona hər cür dəstəyi vermişdilər. ASALA-nın bu dəstəyinin altında qalmayan İran 1982-ci ildən etibarən türk diplomatlarını hədəfə alan erməni terror təşkilatlarının ən şiddətli hücumlarının baş verdiyi illərdə ASALA-nı öz ərazisində düşərgə ilə təmin etmiş, ona silah vermişdi.

İran o illərdə ASALA-ya elə bir "vəfa borcu" ödəmişdi



ki, bu terror təşkilatının 1984-cü il aprelin 28-də Türkiyənin Tehrandakı səfirliyinin katibi Şadiyə Yöndərin həyat yoldaşı Işıq Yöndəri qətlə yetirən iki ASALA terrorçusunu yaxalamasına baxmayaraq, Ankaranın bütün müraciətlərini eşitməzdən gələrək təhvil verməmişdi.

ASALA kimi PKK terror təşkilatı ilə belə bir yaxınlığı olan İran rejimindən bir neçə gün əvvəl Azərbaycan səfirliyinə hücum edən terrorçunun əsl kimliyi barədə açıqlama verməsini gözləyirik.

TASFO İranda qardaş ölkə - Can Azərbaycanımızın səfirliyinə edilən terror hücumunu ən sərt şəkildə qınayır, şəhidimiz Orxan Əsgərova Allahdan rəhmət diləyir. Olayın daha da böyüməsini önləyən səfirliyin qəhrəman əməkdaşına da ayrıca təşəkkür edirik, Allah ondan razı olsun, çox böyük iş gördü, həm də çox böyük".

***Mənsur Rəğbətoğlu***

# Bu gündən əmanətlər vergiyə cəlb olundu: Hansı mənfi cəhətləri olacaq?

## Artıq bu gündən banka olan əmanətlər vergiyə cəlb olunacaq

**Banklarda olan əmanətlər 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində vergidən azad edilmişdi. Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, yerli və xarici bankın Azərbaycanda fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad idi. Artıq bu müddət bu gün başa çatır.**

Qərarın 7 ildən sonra ləğvi və verginin ümumi depozitə görə tətbiq olunacağı kimi məsələlər maraq doğurur.

İqtisadçı Rəşad Həsənov Teleqraf.com-a bildirib ki, məlum qərarda məbləğ limiti yoxdur.

O bildirib ki, 10 faiz məbləğində ödəmə mənbəyindən



vergi tutulur: *"Yerləşdirilmiş əmanətlərdən əldə olunan gəlirlərin 10 faizi həcmində banklar tərəfindən vergi hesablanaraq tutulur və aidiyyəti üzrə Dövlət Vergi Xidmətinin hesablarına köçürülür. Tutaq ki, əmanətçi banka 10 min manat depozit yatırıb. İl sonunda əmanətin 1 000 manat gəliri olub. Gəlirin 100 manatını aidiyyəti qurum, yəni bank özündə saxlamaqla vergi xidmətinə ödəməlidir".*

Gəlir olmadığı halda vəziyyətin necə dəyişməsinə gəlincə, analitik qeyd edib ki, əmanətin gəlirli olmaması kimi bir təcrübə Azərbaycanda yoxdur: *"Əmanətlərdə gəlir o halda olmaya bilər ki, depozit banklara sıfır faizlə yerləşdirilir. Sıfır faizlə kim əmanət yerləşdirər?! Doğrudur, inkişaf etmiş ölkələrdə belə bir təcrübə var. Deflyasiya (şişirmə, yerli valyutanın alıcılıq qabiliyyətinin artması) dövrlərində, eyni zamanda vəsaitlərin təhlükəsizliyinin saxlanması ilə bağlı daha çox müşahidə olan bir yanaşmadır. Amma bu yanaşma ölkəmizdə mövcud deyil. Gəlir olmadığı təqdirdə təbii ki, məntiqlə vergi də olmayacaq. Çünki vergi gəlirə tətbiq olunur. Gəlir 1 manatdırsa, 10 qəpik, 100 manatdırsa, 10 manat hesablanır".*



Gəlir vergisi istənilən vaxt, uzun və qısa müddətli dövrdə götürülə bilən depozitlərin növlərinə də şamil olunurmu?

Rəşad Həsənovun sözlərinə görə, depozitin növündən asılı olmayaraq məlum vergidə faiz dəyişir: *"Bəzi hallarda faiz məbləği aşağı düşür və gəlirin ödənilməsi reqlamenti dəyişir. Yəni ayda bir dəfə, yaxud dövrün sonunda ödənilir. Gəlir nə vaxt ödənilirsə, tutulma o vaxt həyata keçirilir".*

Mütəxəssis sözügedən güzəştin müddətinin bitməsinin təsirlərinə də toxunub: *"Azərbaycanda ümumiyyətlə, bank sektorunda izafi likvidlik var. İzafi likvidlik faizləri aşağı salır. Sığorta olunan əmanət faizləri 12 faizdir. Amma faktiki olaraq bazarda banklar əksər hallarda 6-7 faizlə əmanət cəlb edirlər. 6-7 faizlə cəlb olunan əmanətin təxminən 6-7 faizi də əlavə tutulacaq. Ümumiyyətlə, faiz dərəcəsi 5-ə doğru gedəcək. Bu faiz dərəcəsi də gözlənilən inflyasiyadan aşağı olacaq.*

*Bank əmanətlərinin yerləşdirilməsində məqsədlərdən birincisi gəlir əldə etməkdirsə, ikincisi, vəsaitləri inflyasiya risklərindən qorumaqdır. Belə olduğu təqdirdə insanlar inflyasiyanın yüksək olduğunu nəzərə alaraq həmin vəsaitləri banklardan ya çıxaracaqlar, ya da vaxtı çatanda müqaviləni yeniləməyəcəklər. Bir sözlə, yeni əmanətlər yatırılmayacaq. Bu zaman həmin vəsaitlər bazara yönələ bilər. Bazarda əlavə pul kütləsinin artması inflyasiya təzyiqini daha da artıracaq.*

*Digər tərəfdən, indiki halda bizim yığıma, əhalinin əlində olan passiv yığımların da iqtisadiyyata cəlb edilməsinə ehtiyacımız var. Çünki həm post-pandemiya, həm post-işğal, bir tərəfdən iqtisadi aktivlik, digər tərəfdən də bərpanın maliyyə mənbələrinin formalaşdırılması zərurəti yaradır.*

*Belə bir vəziyyətdə əmanətlərin banklarda azalması heç də arzuolunan deyil. Bu, özəl vəsaitlərin, eyni zamanda bank sektorunun özünün quruculuq prosesində iştirakçılığını zəifləđir".*

İqtisad üzrə elmlər doktoru Elşad Məmmədov isə hesab



edir ki, 7 il müddətində əmanətlərin gəlir vergisindən azad olunması banklara daha çox depozitin cəlb edilməsinə və investisiya axınının sürətlənməsinə imkan yaradıb: *"Rəqəmlərə ümumi nəzər salsaq görərik ki, bu dövrdə banklarda mövcud olan əmanətlərin həcmi artıb. O cümlədən milli valyutada ifadə olunan depozitlərin də xüsusi çəkisində artımı müşahidə olunub. Hesab edirəm ki, bu, müsbət addım idi. Bu qərarın müddətinin uzadılmaması ilə aydın olur ki, əmanətlərə yenidən gəlir vergisi tətbiq ediləcək.*

*Etiraf edim ki, bu qərarın hansı məntiqlə verildiyini anlaya bilmirəm. Çünki hazırkı şəraitdə ölkədə iqtisadi imkanlar həmin dövrlə müqayisədə artıb. Bu da o deməkdir ki, istər bank sektorunda, istər büdcə öhdəliklərinin yerinə yetirilməsində, istərsə də vergi yığımı ilə bağlı hansısa problemləri, likvidlik və vəsait çatışmazlığını görmürük. Bu nöqteyi-nəzərdən burada bir zərurət yoxdur".*

İqtisadçının sözlərinə görə, əmanətlərin yenidən gəlir vergisinə cəlb olunması fiskal siyasətin sərtləşdirilməsidir, həmçinin pulun və potensial investisiyaların geri çəkilməsidir: *"Bu tip qərarların tərəfdarı ola bilmərəm. O hallarda pul-kredit, fiskal siyasət sərtləşdirilə bilər ki, ölkədə artıq pul kütləsi var. Amma Azərbaycanda belə proses müşahidə edilmir. Ona görə də hesab edirəm ki, ilk növbədə bank sektorundakı investisiya yönümlü kreditlərin artmasına öz mənfi təsirini göstərəcək.*

*Bu, həm də ölkədə investisiya mühitinə təkan verən qərar olmayacaq. Halbuki milli iqtisadiyyatımızın ən zəruri istiqamətlərindən biri məhz investisiyaların artmasına olan tələbatın ödənilməsidir. Zənnimcə, bu tip qərarlarla bunu təmin etmək mümkün deyil, qaydanın əks effektini görmək olar".*

*Yeganə Oqtayqızı*




## Borc alıb-verməyin qaydaları dəyişir

### Həcmi 6 dəfə artacaq...

*"Bu gün Milli Məclisdə Mülki Məcəllənin "Borc" qanun layihəsinə birinci oxunuşda baxılacaq. Layihə məcəllənin "Borc" adlı 37-ci fəslini tamamilə dəyişdirir".*

Bunu bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov deyib.

Onun sözlərinə görə, qanuna dəyişiklik nəticəsində borcalanların hüquqları daha yaxşı qorunacaq: *"Bu qanun layihəsini 2014-cü ildə GİZ-in təşəbbüsü ilə alman professoru Piter Krebsinlə birgə hazırlamışıq. Hələ 9 il əvvəl dövlət orqanları tərəfindən əsasən müsbət qarşılansa da, Mərkəzi Bankın o zamankı rəhbərliyi və bankların əksəriyyəti layihənin qəbul olunmasına imkan verməmişdi. Halbuki bütövlükdə bankların da maraqları nəzərə alınmışdı.*

*Layihə Mülki Məcəllənin "Borc" adlı 37-ci fəslini tamamilə dəyişdirir. Fəslin həcmi 6 dəfə artacaq. Ən əsası isə borc və kredit münasibətləri həm borcverənlərin, həm borcalanların, həm də bütövlükdə cəmiyyətimizin maraqları baxımından daha dolğun və ədalətli tənzimlənəcək.*

*Yanaşmama görə, fəsil bundan sonra 3 paraqrafdan ibarət olacaq: borc müqaviləsi; kredit müqaviləsi; istehlak krediti müqaviləsi. Sonuncu paraqraf xüsusilə böyük əhəmiyyətə malikdir. Nəhayət ki, Azərbaycanda istehlak kreditləri ayrıca tənzimlənəcək və vətəndaşların hüquqları daha yaxşı qorunacaq".*

Əkrəm Həsənov deyir ki, yenicə dərc olunmuş layihəylə ilkin baxışda tanış olub: *"Əsasən Krebsinlə mənim ilkin məramlarımız və yanaşmamız qorunub saxlanılıb. İlkin layihənin forması saxlanılıb, 37-ci fəslə aid olmayan bəzi maddələr də dəyişdirilir, amma bunun mətləbə aidiyyəti yoxdur. Məzmun baxımdan mövcud layihədə fərqlər var. Onların bəzisini bir neçə il əvvəl Ədliyyə Nazirliyi nəzərimə çatdırmışdı, Krebsin iştirakı olmadan mən də fikirlərimi bildirmişdi. Layihədə bəzi yeniliklər var. İlkin layihədə olmuş bəzi müddəalar isə, əksinə, çıxarılıb.*

*Hər halda bu layihənin qəbul edilməsi ölkəmiz, iqtisadiyyatımız, bank sistemimiz üçün çox mütərəqqi addım olacaq".*

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

XXXIV YAZI

(əvvəli ötən saylarımızda)

*- insan Allaha gerçək mənada həmd və şükür etməkdən acizdir, Onun nemətlərinin sayı-hesabı yoxdur: "Allahın nemətlərini saymaq istəsəniz, saya bilməzsiniz" (Nəhl, 16/18), Onun bütün nemətlərini tanımayan Ona layiqincə həmd edə bilməz. İnsana həmd etmək imkanını da O vermişdir, bu da bir nemətdir. Həmd və şükür sadəcə dil ilə olmaz. Həmd Allahı doğru tanımaqla, Ona təslim olmaqla mümkündür. Həmd etməkdən aciz olduğunu bilmək həmd etməkdir;*

*- var olmaq yox olmaqdan xeyirlidir, var olmaq bir nemətdir, var edən də Odur. "Əlhəmdülillah" demək nemətlərin hamısının Allahın haqqı və mülkü olduğuna, Onun ortağının olmadığına şahid olmaqdır;*

*- həmd etmək təsbih etməkdən üstündür, təsbih Allahın zat və sifətlərində nöqsanlardan uzaq olduğunu (O, nöqsansız olandır) ifadə edir. Həmd bu anlamla birlikdə, uca Allahın qullarına ehsan etdiyini, nemətlər verdiyini, mərhəmət edən olduğunu da ifadə edir;*

*- "Əlhəmdülillah" kəlməsi həm keçmişi, həm də gələcəyi əhatə edir. Keçmişlə əlaqəsi budur: öncədən verilmiş nemətlərə görə həmd edilir. Gələcəklə əlaqəsi budur: "And olsun ki, şükür edərsəniz, Mən də sizə olan nemətimi artıraram" (İbrahim, 14/7). Qul şükür ilə məşğul olduğu zaman ağıl və qəlbinə Allahın nemətlərinin, məhəbbət və mərifətinin qapıları açılar. Bu da nemətlərin ən böyüyüdür. Bu mənadan dolayı "əlhəmdülillah" sözü keçmişlə əlaqəsi səbəbi ilə sənə cəhənnəm qapılarını bağlayar, gələcəklə əlaqəsi səbəbi ilə də cənnət qapılarını açar. Bu halda, "əlhəmdülillah" sözünün keçmişlə bağlı təsiri bizi Allaha mənəvi yaxınlaşmaqdan uzaq tutan qapıları örtər, gələcəklə bağlı təsiri də mərifətullah (Allahı tanıma) qapılarını açar;*

*- "Əlhəmdülillah" cümləsi çox şərəfli, şanı uca olan bir kəlmədir, ancaq o, yerli-yerində istifadə edilməlidir. Allahın quluna nemətləri çoxdur. Bu nemətləri iki yerə ayırmaq olar: dünya və din nemətləri: din neməti dünya nemətindən üstündür. İnsan din nemətlərinə qovuşduğu zaman "əlhəmdülillah" deməlidir. Dünya nemətləri də iki cürdür. Elə olur ki, nemətə nemət olduğuna görə dəyər verilir, elə də olur ki, nemətə neməti verənin mükafatı olması baxımından dəyər verilir. İkincisi daha üstündür, bu məqamda "əlhəmdülillah" demək daha gözəldir;*

*- atamız hz. Adəmin ilk sözü "əlhəmdülillah"dır, cənnətlik olanların son sözü də "əlhəmdülillah"dır. Bu aləmin başlanğıcı və sonu həmdə bağlıdır. Çalış ki, əməllərinin əvvəli və sonu "əlhəmdülillah" olsun;*

*- insan Allaha həmd etsə də, etməsə də, O, zatı və feilləri baxımından həmdə layiqdir. Allah "həmd Allaha məxsusdur" buyurdu, "həmd Allaha məxsusdur de" buyurmadı, quluna imkan tanıdı, itaətkar qullar Ona həmd edər, üsyan edənlər həmd etməz, bu, əmr olmadığına görə günahları daha az olar;*

*- "Əlhəmdülillah" cümləsi həmdin Allahın haqqı və mülkü olduğunu göstərir. Bu haqq din göndərilməzdən öncə də var idi;*

*- Həmdin həqiqət və mahiyyətini araşdırmaq zəruridir. Allaha həmd etmək sadəcə dillə "Əlhəmdülillah" deməkdən ibarət deyil. Nemət verənə həmd etmək nemət verən olması səbəbi ilə Ona təzim ifadə edən hər növ feillərdən ibarətdir. Bu feil ya qəlbin feili olar, ya da dilin feili olar, ya da üzvlərin feili olar. Qəlbin feili Allahın kamal və cəlal sifətlərin sahibi olduğuna inanmasıdır. Dilin feili Allahı kamal sifətlər daşıyan sözlərlə zikir etməsidir. Orqanların feili nemət verən varlığın kamal və cəlal sifətlərin sahibi olduğunu göstərən işləri etməsidir; (Fahruddin er-Razi, Tefsir-i Kebir ("Mefatihul-Ğayb"), İstanbul, 2013, c.I, s. 306-319)*

Nemətlərin yaradılması və verilməsi həmdi zəruri edir. Həmd deyir ki, qüsursuz, mükəmməl, nöqsan sifətlərdən uzaq olan Odur. Həmd insanı mükəmməl olma xəstəliyindən qoruyur, deyir ki, sən qüsurlusan, ey insan, mükəmməllik şeytanın baban hz. Adəmə qurduğu tələdir. Unutma ki, şeytan onu iki şeylə aldatmışdı: Sən mükəmməl və əbədi olmaq istəmirsənmi? Yasaq ağacın meyvəsindən ye, mükəmməl və əbədi ol! Bu qissə insanlara öyüd verir, deyir ki, insan qüsurlu varlıqdır, həmdə layiq deyil, ölümlüdür.

Həmd insanı tərif xəstəliyindən qoruyur. Tərif tənqiddən daha təsirli vasitədir, o, insanı yoldan çıxarar, ölçüsüz tənqid də, tərif də insanın əxlaqını pozar. Ey insan, heç kimi Allahı təriflədiyin kimi tərifləmə, bil ki, həmdə layiq olan ancaq Odur.

Həmd nemətin Allahdan olduğunu bilməkdir, həmd insan olaraq yaradılmağın şükrünün Ona təslimiyyət olduğunu öyrədir. Allaha təslim olmaq Onun seçdiyi həyat tərzini yaşamaqdır.

Həmd deyir ki, Allahın qullarına lütfündə ortağı yoxdur, O, fəziləti və üstün Olandır, insanı yaradan, ona saysız-hesabsız nemətlər verəndir, nemətlərin, bütün gözəlliklərin qaynağı Odur.

Həmdin hədəfi Allahın rizasını qazandırmaqdır. Həmd davamlı olmalıdır, çünki nemətlər fasiləsiz verilir, aldığımız hər nəfəs bir nemətdir, insan hər şeyini Ona borcludur, bu borcları ödəmək imkanı da yoxdur, tək çıxış yolu (borcu ödəmək imkanı) Ona təslim olmaqdır.

Həmd tövhid inancı (la ilahə illallah, Allahdan başqa ilah yoxdur) ilə bağlıdır, deyir ki, O, hər şeyin sahibidir, həmdə layiq tək varlıq Odur, həmddə də Onun ortağı yoxdur.

Həmdin ziddi tənqid (aşağılama), qınama, şükrün ziddi nankorluqdur.

Həmd Allahı gözəl isim və sifətləri ilə öyməkdir. Allah buyurur ki, Ona gözəl adları ilə dua edin, sizdə olan hər nemət Allahdandır (Nəhl, 16/53), həmd Onun haqqı və mülküdür.

Bir görüşə görə, həmd Onun dəf etdiyi bəlaların qarşılığı, şükür isə verdiyi nemətlərin qarşılığıdır. Allah Rəsulu buyurur ki, həmd şükrün zirvəsidir.

<u>Həmd Allahın əl-Həmid adı ilə bağlıdır. O, əl-Həmid olan Allahdır, bütün öygülərə layiq tək varlıqdır, öyülməkdə tayı-bərabəri yoxdur, zatını öyəndir, öygüləri əsla boşa çıxarmayandır. Bir varlığın əl-Həmid olması bu şərtlərə bağlıdır</u>:

*- öyülən özəlliklərin onda sabit olması;*

*- heç kimsə öyməsə də, O, zatında öygüyə layiqdir;*

*- öyənə yaxşılığını öydükdən sonra deyil, öygüdən öncə etməsi;*

*- yaxşılığı şüurlu və iradəli etməsi;*

*- hər növ öygüdən uca olması;*

*- öygüyə möhtac olmaması, öygünün öyülənə deyil, öyənə lütf olması; (Mustafa İslamoğlu, Kurana göre esma-i hüsna, İstanbul, 2011, c. 1, s. 643)*

Mustafa İslamoğlu deyir ki, kim nəyi öyürsə, öysün Onu öymüş olur, çünki öyülən hər varlıq varlığını Ona borcludur. Həmd dörd şeyin toplamıdır: şükür, riza, cəza, qəza.



Şükürlə həmd etmək - şükür həmdin başlanğıcıdır, bu dərəcədə qalan həmd həmd deyil, çünki şükür verilən bir şeyin qarşılığıdır. Bu səviyyədə olan həmd tacirin həmdidir. Riza ilə həmd etmək - riza halı həmd halıdır, qul Allahdan razı olmuşdur, versə də, verməsə də həmd edər. Cəzaya həmd - qul başına gələn hər bəlanı belə qarşılayar: Allah mənimlə əlaqəsini kəsməmişdir. Qəzaya həmd - bu, həmdin ən uca zirvəsidir, olanda xeyir var deməkdir, hər şeyin Onun əsəri olduğunu anlamaqdır: küfür və dəlalətdən başqa hər şeyə həmd olsun (Mustafa İslamoğlu, Kurana göre esma-i hüsna, İstanbul, 2011, c. 1, s. 643).

Həmd üç şəkildə gerçəkləşir: dilin həmdi, bu, həmdin söz halıdır, təsbihdir, Allah buyurur ki, *"əlhəmdülillah"*, - Allaha həmd olsun de. Orqanların həmdi, bu, əməllə (işlə) həmddir, Haqqı görmək gözün, haqqı eşitmək qulağın, Haqqı ayaqda tutmaq əlin, batildən qaçaraq Haqqa yürümək ayağın, düşünmək ağlın, sevmək qəlbin, doğrunu seçmək iradənin həmdidir. Qəlbin həmdi - bu, həmdin duyğu halıdır, qəlb həmd edirsə, qul Rəbbindən razıdır, o, Allahın öydüyünü öyər, sevdiyini sevər, qınadığı, sevmədiyi şeylərdən də uzaq durar.

Qurani-Kərimdə həmdlə bağlı üç əmr var: *"O halda, Rəbbini həmd ilə təsbih et" (Hicr, 15/98; Taha, 20/130; Furkan, 25/58), "Əlhəmdülillah de" (Nəml, 27/59; İsra, 17/111; Möminun, 23/28), "Dünyada da, axirətdə də həmd Ona məxsusdur"* (Qəsəs, 28/70).

Qurani-Kərimdə həmd duadır: *"Yaşlandığım halda mənə İsmayılı və İshaqı verən Allaha həmd olsun! Şübhəsiz, Rəbbim duanı eşidəndir"* (İbrahim, 14/39). Həmd duanın ilk addımıdır, duaya həmdlə başla.

Qurani-Kərimdə həmd Allahı təsbih etməkdir: *"O halda, Rəbbini həmd ilə təsbih et, Onun hüzurunda səcdə edənlərdən biri ol!"* (Hicr, 15/98)

Qurani-Kərimdə həmd Allaha itaətdir: *"O sizi o gün çağıracaq, siz də (istər istəməz) Ona həmd edərək bu çağırışa tabe olacaqsınız..."* (İsra, 17/52)

Qurani-Kərimdə həmd bağışlanma istəməkdir: *"Xətan üçün bağışlanma istə və səhər-axşam həmd ilə Rəbbinin ucalığını xatırla!"* (Mömin, 40/55)

Qurani-Kərimdə həmd səbirdir: *"O halda, artıq onların söylədiklərinə qarşı səbirli ol! Bir də Günəşin çıxması və batmasından öncə Rəbbinin uca zatını (namaz qılaraq) həmd ilə an!"* (Qaf, 50/39)

Qurani-Kərimdə həmd Allahdan razı olmaqdır: *"Günəşin doğuşundan və batmasından öncə Rəbbinin uca zatını (namaz qılaraq) an (ki, ondan) razı olduğun bəlli olsun"* (Taha, 20/130).

Qurani-Kərimdə həmd təvəkkül etməkdir: *"Nəhayət, ölümsüz olan O mütləq diri Zata təvəkkül et, həmd ilə Onun sonsuz ucalığını dilə gətir"* (Furkan, 25/58).

Qurani-Kərimdə həmd təkəbbürlənmədən səcdəyə qapanmaqdır: *"Bizim ayələrimizə iman edənlər (ayələrimiz onlara bildiriləndə) sayğı ilə səcdədəyə qapanıb təslim olanlar və Rəblərinin sonsuz varlığını həmd ilə ananlardır"* (Səcdə, 32/15).

<u>Qurani-Kərim buyurur ki, insan bunlardan ötrü Allaha həmd etməlidir</u>:

*- zülm edənlərin kökünü kəsdiyi üçün; (Ənam, 6/45)*

*- bizi hidayətə yönəltdiyi üçün, Onun hidayəti olmasa idi, biz hidayətə qovuşmazdıq; (Əraf, 7/43)*

*- mümkün olmayan işləri mümkün qıldığı, nemətlər verdiyi, övladlar bəxş etdiyi üçün; (İbrahim, 14/39)*

*- anlaşılan misallar verdiyi, vəhyi bizə göndərdiyi üçün; (Nəhl, 16/75; Nəml, 27/93; Zümər, 39/29)*

*- ilahi rəhbərlik olan Quranı endirdiyi, Onda heç bir əyriliyə yer vermədiyi üçün; (Kəhf, 18/1)*

*- qeyrətli məzlumları zalımların əlindən qurtardığı üçün; (Möminun, 23/28)*

*- günahkar qullarından haqqı ilə xəbərdar olub, inanan qullarına kafi olduğu üçün; (Furkan, 25/58; Nəml, 27/93)*

*- bizə özəl verilən bütün nemətlər üçün; (Nəml, 27/15)*

*- göydən yağmur yağdırıb yer üzünü canlandırdığı üçün; (Ənkəbut, 29/63)*

*- göyləri və yeri yaratdığı üçün; (Loğman, 31/25)*

*- hökm və hikmət sahibi olduğu, hər şeyi haqqı ilə bildiyi üçün; (Səbə, 34/1)*

*- yaratmada dilədiyini artırdığı, hər şeyə gücü çatdığı üçün; (Fatır, 35/1)*

*- kədəri yox etdiyi üçün; (Fatır, 35/34)*

*- çox bağışlayan olduğu üçün; (Fatır, 35/34; Şura, 42/5)*

*- şükrün qarşılığını verdiyi üçün; (Fatır, 35/34)*

*- mərhəmət sahibi olduğu üçün; (Şura, 42/5)*

*- saleh əməl sahiblərinə mükafat verəcəyi, vədini gerçəkləşdirəcəyi üçün; (Zümər, 39/74)*

*- qulları arasında ədalətlə hökm verəcəyi üçün; (Zümər, 39/75)*

*- tövbələri çox qəbul etdiyi üçün; (Nasr, 110/3)*

*<u>Qurani-Kərimə görə</u>, insan aşağıda göstərilən biçimdə və zamanda həmd etməlidir:*

*- duaları bitəndə aləmlərin Rəbbinə həmd edər; (Yunus, 10/10; Mömin, 40/65)*

*- səcdə halında həmd edər; (Hicr, 15/98; Səcdə, 32/15)*

*- içi daralanda, sıxıntısı olanda, dara düşəndə həmd edər; (Hicr, 15/97-98)*

*- Günəşin doğuşundan və batışından öncə həmd edər; (Taha, 20/130; Qaf, 50/39)*

*- axşam, səhər, hər an həmd edər; (Mömin, 40/55)*

*- qiyamda (dik duranda) həmd edər; (Tur, 52/48)*

**Ardı var...**

<u>**Sıracəddin Hacı**</u>



## Azərbaycanlı tələbələr erməni təxribatının qarşısını alıblar

Azərbaycanlı tələbələr Londonun Queen Mary Universitetinin (QMUL) İnsan Haqları Mərkəzində Ermənistanın Birləşmiş Krallıqdakı səfirinin "Münaqişə zonalarında insan hüquqları: Dağlıq Qarabağ məsələsi" mövzusunda konfransda iştirakının qarşısını alıblar.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, Britaniya Azərbaycanlıları Koordinasiya Şurasına üzv təşkilatın - Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova buna səbəbin erməni tələbələrin səfirin görüşünü Azərbaycanın Qarabağ bölgəsindəki erməni separatçılarının "bayrağı" altında təşkil etmək cəhdi olduğunu deyib. Onun sözlərinə görə, bu universitetin məzunu Turan Qafarlı tədbir haqqında xəbər tutan kimi icmamızla və Queen Mary Universitetində təhsil alan tələbələrimizlə əlaqə saxlayıb.

Ermənilərin qanunsuz hərəkətinin qarşısını almaq üçün fikir mübadiləsi aparılandan sonra tələbələr Qiyafət Xeyirxəbərli, Nicat Osmanlı, Akif Qurbanov, Rəna Süleymanova və Kifayət Dəmirlinin adından Queen Mary Universitetinin prezidenti və direktoru Kolin Qaret Beyliyə müraciət ünvanlanıb.

Müraciətdə bildirilib ki, azərbaycanlı tələbələr Universitetin hərbi gərginliyin davam etdiyi ərazilərdə insan hüquqları məsələləri üzrə müzakirələr təşkil etmək səylərini yüksək qiymətləndirirlər. Çünki bu, cari məsələlərə işıq salır və mübahisə edən tərəflər arasında qarşılıqlı anlaşmaya kömək edir. Lakin Ermənistanın səfirinin iştirak edəcəyi konfrans nüfuzlu akademik qurumların siyasi cəhətdən həssas mövzulara həsr olunmuş tədbirlərin təşkili və ya keçirilməsi zamanı beynəlxalq hüququn prinsiplərinə riayət olunmasına zəmanət vermir.

Qeyd edilib ki, tədbirin təbliği üçün istifadə olunan plakatda qondarma "Dağlıq Qarabağ respublikası"nın bayrağını təsvir etməklə, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik nümayiş etdirilir və beynəlxalq hüququn prinsipləri pozulur. Digər tərəfdən belə bir konfransın təşkili Ermənistan tərəfindən hüquqları pozulmuş azərbaycanlılara qarşı qərəzli münasibət kimi qiymətləndirilə bilər. Üçüncüsü, tədbir yalnız Ermənistanın Böyük Britaniyadakı səfirinin simasında erməni tərəfinə öz perspektivlərini ictimaiyyətə çatdırmaq imkanı verir. Bu da o deməkdir ki, görüş iştirakçıları mürəkkəb məsələ ilə bağlı yalnız təktərəfli məlumat alacaqlar.

Universitet icmasının bir hissəsi olmaqdan qürur duyduqlarını bildirən gənclərimiz rəhbərliyi konfransın təşkilində yaranan problemlərin aradan qaldırılmasına dəvət ediblər.

Azərbaycanlı tələbələrin müraciəti erməni səfirinin fevralın 9-da keçiriləcək görüşünün ləğv edilməsi ilə nəticələnib.

# Azərbaycan-Macarıstan əməkdaşlığı: Yeni dönəm...



Macarıstan ölkəmizin Avropadakı ən yaxın və etibarlı müttəfiqlərindən biridir. Bunu müstəqilliyimizi bərpa etdikdən sonra ölkələrimiz arasında getdikcə artan və keyfiyyətcə zənginləşən qarşılıqlı münasibətlərdə görməmək mümkün deyil. Hələ 1990-cı illərdən başlayaraq iki ölkənin dövlət qurumları və cəmiyyətləri arasında cazibənin artımı özünü davamlı olaraq illərlə genişlənən real qarşılıqlı əməkdaşlıqda göstərib. Siyasi əməkdaşlıq sahəsində dövlətlərimiz arasında bağlanmış strateji tərəfdaşlıq müqaviləsi, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində uzlaşdırılan siyasət kursu, iqtisadi əməkdaşlıq sahəsində imzalanmış onlarla müqavilələr, hökumətlərarası və ayrı-ayrı dövlət, qeyri-dövlət qurumları arasında həyata keçirilən layihələr, mədəni-humanitar sahədə elm, təhsil, nəqliyyat kommunikasiyaları ilə bağlı qarşılıqlı faydalı əməkdaşlıq – bütün bunlar Azərbaycan–Macarıstan münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyinin göstəriciləridir.

Bu fikirləri Milli Məclisin deputatı, fəlsəfə doktoru Cavanşir Feyziyev bildirib.

Onun sözlərinə görə, bütün bunlar qarşılıqlı dəstəyin, ümumi strateji maraqlar naminə faydalı əməkdaşlığın son həddi deyil. Dünya durmadan dəyişir. Yeni dünya düzəninin formalaşması istiqamətində bütün dünyada və xüsusilə də Avrasiya ərazisində baş verən genişmiqyaslı proseslər dövlətlərin siyasi və iqtisadi inteqrasiya proseslərinə demək olar ki, hər gün bir yenilik gətirir. Hər bir yenilik isə öz növbəsində həm də dövlətləri və cəmiyyətləri yeni çağırışlarla üz-üzə qoyur. Belə bir dinamik təzadlı zamanda tərəfdaşlar və müttəfiqlər arasındakı münasibətlərin də zamanın tələblərinə uyğun daha müasir və daha faydalı əməkdaşlıq formatına doğru inkişaf etdirilməsini şərtləndirir. Azərbaycan və Macarıstan arasında dostluq, əməkdaşlıq münasibətlərinin məhz belə bir trend əsasında daim təkmilləşdiyini son bir neçə ilin qarşılıqlı təmaslarında daha aydın müşahidə etmək mümkündür. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günlərdə Macarıstana səfəri, həmin səfər çərçivəsində müzakirə edilən məsələləri və imzalanan sənədləri deyilənlərin praktiki təsdiqi hesab etmək olar. Genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat və qarşılıqlı əməkdaşlığın geniş tətbiq sahələrini əhatə edən yeni ikitərəfli müqavilələr ölkələrimiz arasında münasibətlərin əhatə dairəsinin daha da genişləndiyinin və keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun göstəriciləridir. Belə qarşılıqlı maraq, ildən-ilə artan, böyüyən əməkdaşlıq iki dövlət və xalqlarımız arasında tarixi sivilizasiya yaxınlığına, müasir beynəlxalq siyasət sisteminə praqmatik, konstruktiv baxış ortaqlığına və ən əsası qarşılıqlı dəstəyə, etimada əsaslanır. Bütün bunların açıq və səmimi şərhi Macarıstan Baş naziri Viktor Orbanın açıqlamasında özünü açıq-aydın göstərdi: "...Biz xarici siyasətdə bir-birimizi başa düşürük. Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm".

Cavanşir Feyziyev qeyd edib ki, dövlətlərimiz və xalqlarımız arasında qarşılıqlı rəğbətin qaynağı tarixi baxımdan ortaq sivilizasiya mənsubiyyətimiz, ortaq mədəni-mənəvi dəyərlərə sahibliyimiz və bu gün sürətlə dəyişən zamanın gündəliyə çıxardığı ortaq çağırışlarla yanaşı, həm də Avrasiyanın gələcək taleyi müstəvisində oxşar geo-siyasi mövqeyimizdən irəli gələn reallıqlardır. Bunu dost ölkənin Baş naziri belə ifadə etdi: "Azərbaycan cənubda İranla, şimalda Rusiya ilə sərhəddir. Macarıstan isə qərbdə Almaniya, şərqdə Rusiya ilə sərhəddir. Biz bundan keçmişik. Biz vəziyyətə bələdik. Belə bir mürəkkəb vəziyyətdə xalqı idarə etməyin nə dərəcədə çətin olduğunu bilirik. Bu, bizə dostluğumuzun möhkəmlənməsində çox kömək edib".

"Səfər çərçivəsində Prezident İlham Əliyevin mətbuata verdiyi bəyanatında Azərbaycanın Avropanın bugünkü və gələcək həyatında oynadığı rolun müstəsna əhəmiyyəti, ölkəmizin təşəbbüsləri əsasında həyata keçirilən qitə miqyaslı layihələrin bütün Avrasiya üçün faydaları və eləcə də ikitərəfli əsasda Macarıstanla Azərbaycan arasında davamlı olaraq güclənən işbirliyinin xalqlarımız üçün əhəmiyyəti barədə açıqlamalar hər iki ölkənin ictimaiyyətində böyük rəğbət doğurdu. Azərbaycanın ənənəvi və müasir yaşıl enerji istehsalı, ixracı və tranziti ilə bağlı geniş imkanları, Avrasiya miqyaslı nəqliyyat-logistika layihələri ilə bağlı böyük potensialı, eləcə də Macarıstan şirkətlərinin işğaldan azad olunmuş ərazilərin yenidən bərpası ilə bağlı layihələrə cəlb olunması haqqında ölkə başçısının verdiyi açıqlamalar bütövlükdə Azərbaycan – Avropa əlaqələrinin daha da möhkəmləndirilməsi haqqında aydın təsəvvür yaratdı. Prezident həmçinin ölkəmizdə istehsal ediləcək yaşıl enerjinin Avropaya nəql edilməsi ilə bağlı dekabr ayında Rumıniyada imzalanmış dördtərəfli müqavilənin icrasına başlanılması ilə bağlı yaxın günlərdə Bakıda keçiriləcək növbəti toplantının anonsunu verərək bundan sonra Avropa qitəsinin enerji təhlükəsizliyinin daha dolğun və əhatəli şəkildə təmin ediləcəyini bildirdi", - deyə deputat qeyd edib.

"Prezident İlham Əliyev Azərbaycan–Avropa əlaqələri kontekstində Azərbaycan–Macarıstan arasında dostluğun və strateji əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verdiyini belə ifadə etdi: "...Macarıstan və Azərbaycan iki dost və tərəfdaş ölkə kimi bundan sonra da həm ikitərəfli əməkdaşlığı dərinləşdirəcək, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi də bir-birinə əsirgəməyəcək... Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır". Strateji tərəfdaşlığa dair imzalanmış sənədlər onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost ölkələrdir.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin intibah və yüksəliş tarixinə böyük uğur kimi yazılan daha bir rəsmi dövlət səfəri arxada qaldı. Qarşıda isə Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir", - deyə deputat vurğulayıb.

# Qızı yoxa çıxdı, oğlunu güllələdilər, nəvəsi...

## Rəsulzadə ailəsinin başına gətirilənlər

Bu gün Şərqdə ilk demokratik cümhuriyyətin qurucusu, azərbaycanlı siyasi-ictimai xadim, publisist, AXC-nin banisi Məhəmməd Əmin Rəzulzadənin doğum günüdür.

Azərbaycanda SSRİ qurulduqdan sonra sürgün olunan, əksəriyyəti faciəvi şəkildə dünyadan köçən, itkin düşən Rəsulzadə ailəsinin üzvləri haqqında dəhşətli faktları təqdim edir.

**Ümmülbanu – Məhəmməd Əmin Rəsulzadənin həyat yoldaşı**

1888-ci ildə doğulub. 1908-ci ildə Məhəmməd Əmin Rəsulzadə ilə ailə qurub. 1937-ci ildə doğmaca həyat yoldaşı Məhəmməd Əmin Rəsulzadə ilə məktublaşmaları bəhanə gətirilərək Qazaxıstana sürgün olunub. Oğlunun ölümü və ailəsinin dəhşətli taleyinə dözmədiyindən 1940-cı ildə ürəyi dayanıb.



**Lətifə Rəsulzadə. Məhəmməd Əmin Rəsulzadənin qızı**

1910-cu ildə Bakıda doğulub. 1941-ci ildə iki qız uşağı ilə birgə Qazaxıstana sürgün edilib. Üzərində xalq düşməni damğası olduğu üçün burada ona heç kəs kömək etməyib. Nəticədə şaxtalı yanvar günlərinin birində 32 iki yaşlı Lətifə yataqda 9 yaşlı qızı ilə birgə soyuqdan donaraq ölüb. Məhəmməd Əmin Rəsulzadənin qızı olduğu üçün 7 gün kimsə meyitlərə yaxın düşməyib. Sonda uzaq Qazaxıstan çöllərində iki qəbir qazılaraq qərib meyitlər torpağa tapşılıb.



**Xalidə Rəsulzadə. Məhəmməd Əmin Rəsulzadənin qızı**

1916-cı ildə Məhəmməd Əmin Rəsulzadənin ailəsində doğulan, 21 yaşında anası və qardaşı ilə birgə Qazaxıstana sürgün olunan Xalidə müharibənin qızğın vaxtında sənədsiz-filansız Azərbaycana qayıtmağı bacarır. Daha sonra Neftçalaya yola düşdüyü güman edilir. Lakin bu gümandan sonra onun haqqında zərrə qədər də məlumat yoxdur. Sanki, Xalidə Rəsulzadə adlı bir insan bu ölkəyə gəlməyib...



**Rəsul Rəsulzadə. Məhəmməd Əmin Rəsulzadənin oğlu**

Daha bir nakam Rəsulzadə. Özündən sonraya bir fotoşəkil və bir neçə cümləlik bioqrafiya saxlayan Rəsul Rəsulzadə. Azərbaycan Cümhuriyyətinin yarandığı ildə doğulmuşdu, bibisi qızı Kübranı sevirdi, 19 yaşında ikən dostu ilə dəniz sahilinə gedərkən saxlanılır, 3 gün sonra qeyd şərtsiz güllələnir. Məzarı bəlli deyil.



**Azər Rəsulzadə. Məhəmməd Əmin Rəsulzadənin oğlu**

Azərbaycan cümhuriyyətinin süqut etdiyi ildə, 1920-ci ildə Bakıda doğulub.

Məhəmməd Əmin Rəsulzadə oğlunun adını öncə Əliheydər qoyur. Son dəfə Azərbaycandan ayrıldığı zaman oğlunun adını dəyişərək Azər qoyur. Sanki adı taleyini yazır, atası kimi o da demək olar ki, Azərbaycana həsrət qalır. Sürgündən sonra vətəndə uyumaq da Rəsulzadələr arasında ilk olaraq ona qismət olur. 56 ildən sonra Azər Azərbaycana qovuşur. Novxanıda baba yurdunda dəfn olunur.



**Ramiz Rəsulzadə. Azər Rəsulzadənin oğlu**

1942-ci ildə Qazaxıstanda doğulub. Onun da taleyi şəcərənin əksər üzvləri kimi kədərli olur. Repressiyadan vətənə, Naxçıvana, xalası və əzizlərinin yanına dönür. Hətta xalası onun üçün elçi gedir və Ramizi evləndirir. Lakin cəmi iki il sonra 2000-ci ildə özündən sonra övlad izi qoymadan beyninə qan sızaraq dünyadan köçür.

**Maral xanım. Məhəmməd Əmin Rəsulzadənin analığı**

Ailə “sovetin 1 nömrəli düşməni ilə əlaqədə olduğuna görə” bəhanəsi ilə sürgünə göndərilir. Məhəmməd Əmin Rəsulzadənin analığı Maral xanım müsəlman olduğundan yolda yemək yemir. Öz təbiri ilə desək, “Kafirlərin yeməyindən iyrəndiyindən” gününü yalnız qəndi suya batırıb dadmaqla keçirir. Sonra ilk düşərgədə özləri yemək bişirirlər. Bu zaman qadın uzun müddətdən sonra ilk dəfə yemək yeyəndə orqanizmində ciddi problem yaranır. Beləcə Maral xanım orda dünyasını dəyişir”. Maral xanmı yolda dəfn edirlər.

**Rais Rəsulzadə - Azər Rəsulzadənin oğlu**

Rəsulzadə ailəsinin sağ qalan üzvləri Karaqandaya çatır. Azər Rəsulzadənin oğlu Rais Rəsulzadə burada dünyaya gəlir. 1965-ci ildə Karakandada orta məktəbi bitirir. Məktəbdə oxuya-oxuya paralel olaraq Ümumittifaq İncəsənət Universitetində qiyabi təhsil alır. Bu zaman Rəis Rəsulzadənin Alma-Atıda, Moskvada, Daşkənddə Universitetə girmək imkanları var idi. Amma onun prinsipi başqa olur, Rais Rəsulzadə 1965-ci ildə baba yurdu olan Azərbaycana gəlir. Burada Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olur. Sonra Bakıda yataqxanada otaq tapan Rəis 4 illik təhsilini başa vurub hərbi xidmətə yollanır. Hərbi xidmətdən sonra da Rais atasının yanına, Karaqandaya deyil, vətəninə, Bakıya qayıdır. Bakıda onlara məxsus 3 ev olmasına rəğmən öz doğma yurdunda uzun illər zirzəmidə yaşamalı olur.



Beləcə Rəis 1971-ci ilin soyuq dekabr günündə bir zamanlar babasının rəhbər olduğu ölkənin soyuq zirzəmilərində özünə ev tapır. Rais Rəsulzadə 1978-ci ildə keçmiş SSRİ və Azərbaycan rəssamlar ittifaqlarına üzv qəbul olunur və həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ”Rəsm, heykəltaraşlıq və boyakarlıq” kafedrasında əvvəlcə müəllim, sonra baş müəllim təyin edilir.



Azərbaycan Respublikasının Əməkdar Rəssamı (2002), Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının sədridir. (2009)

Rəis Rəsulzadənin Humay adlı bir qızı var. Moskva Texniki Universitetini bitirib. Hazırda Moskvada yaşayır. Rəis Rəsulzadə peşəkar rəssam, pedaqoqdur - həm də möhtəşəm bir şəcərənin kişi qolu üzrə sonuncu nümayəndəsidir!

P.S. Məqalədə Rais Rəsulzadənin fikirlərindən və N.Bağırzadənin ”Uzaqdakı yaxınlar” kitabından faktlardan istifadə olunub.

# Kremlin işlər idarəsinin iki müdiri

***Ölümündən sonra onun qeyd dəftərçəsinin arasından tapılmış kağızda bu sözlər yazılıb: "Mən satqın deyiləm və kiməsə qarşı çıxmaq fikrim olmayıb. Amma mən qorxuram..."***



## 1991-ci ildə onlar 40 gün arayla intihar ediblər, ikisi də eyvandan atılıb

Nikolay Kruçinanın yazdığı bu qeyd istintaq qrupuna əsas verib ki, onun ölümünü intihar kimi qiymətləndirsinlər. Amma sonralar bu müəmmalı ölüm haqqında fərqli versiyalar da üzə çıxıb.

SSRİ-nin mövcudluğu dövründə Mərkəzi Komitənin işlər idarəsinin müdiri vəzifəsində 16 nəfər işləyib. Nikolay Kruçina bu vəzifənin son daşıyıcısı olub. Belə ki, 26 avqust 1991-ci ildə Kruçinanın müəmmalı ölümündən sonra bu vəzifə ləğv edilib.

Mərkəzi Komitənin işlər idarəsi siyasi fəaliyyətlə məşğul olmasa da, onun fəaliyyət dairəsi kifayət qədər əhatəli olub. Kremlin maliyyə, təminat və təchizat məsələləri məhz bu idarə tərəfindən həyata keçirilib. Mərkəzi Komitənin balansında olan mənzillər və bağ evləri, avtoparklar, sanatoriya, pansionat və istirahət evləri, nəşriyyatlar və mətbu orqanlar, kitabxanalar, muzeylər, saraylar, arxivlər, mehmanxanalar və s. birbaşa işlər idarəsinin tabeliyində olub.

Bunlar məsələnin rəsmi tərəfləridir. İşlər idarəsi qeyri-rəsmi funksiyalar da daşıyıb: partiyanın "qara kassası"nı zənginləşdirmək, xarici ölkələrdə fəaliyyət göstərən Kommunist Partiyalarını maliyyələşdirmək, SSRİ-nin xarici ölkələrdəki agentura şəbəkələrinə DTK vasitəsilə pul ötürmək və s. İdarə müdirinin qeyri-rəsmi vəzifələrindən biri də Kreml məmurlarının kaprizli ailələrinin bitib-tükənməyən arzularını, istəklərini həyata keçirməkdən ibarət olub.

1983-cü ildən 1991-ci ilə qədər Nikolay Kruçina işlər idarəsinin müdiri kimi bütün bu işlərin öhdəsindən gəlməyə çalışıb.

Nikolay Kruçina 1928-ci ildə Xabarovskda anadan olub. Orta təhsilini başa vurduqdan sonra Rostovda Kənd Təsərrüfatı İnstitutunda ali təhsil alıb. İnstitutu bitirdikdən sonra komsomol orqanlarında çalışıb. 1956-cı ildə Macarstan hadisələri zamanı təbliğat dəstəsi ilə həmin ölkəyə göndərilib. 1962-ci ildə ümumittifaq komsomolunda kənd gəncləri şöbəsinə rəhbər təyin edilib. Bir ildən sonra Kruçina Mərkəzi Komitəyə dəvət olunub və o, kənd təsərrüfatı şöbəsində təlimatçı vəzifəsinə təyinat alıb. 1965-ci ildə Kruçina Qazaxıstana, Selinoqrad vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə göndərilib. Bu vəzifə onun siyasi karyerasında böyük rol oynayıb.

1978-ci ildə Nikolay Kruçina yenidən Mərkəzi Komitəyə dəvət alıb. O, Mərkəzi Komitənin kənd təsərrüfatı şöbəsi müdirinin birinci müavini təyin edilib. Qeyd edək ki, elə həmin ərəfədə Mixail Qorbaçov Mərkəzi Komitənin kənd təsərrüfatı işləri üzrə katibi vəzifəsinə təyin edilib. Kruçina ilə Qorbaçovun yaxın münasibətləri də məhz həmin vaxtdan başlanıb.

1983-cü ildə Yuri Andropov hakimiyyətə gələndə apardığı kadr islahatının siyahısına işlər idarəsinin müdiri Georgi Pavlov da düşüb. Brejnevin həmyerlisi olan Pavlov bu vəzifəyə 1965-ci ildə təyin olunub. O, Brejnevin ən yaxın adamlarından biri sayılıb. Kremldə çoxları Pavlovu baş katibin ailəsinin təminatçısı sayıb. O cümlədən Pavlov Brejnevin *"qara pullar"* xəzinəsinə cavabdehlik daşıyıb. Buna görə də Andropov 73 yaşlı Pavlovu *"yaşı ilə əlaqədar"* vəzifəsindən uzaqlaşdırıb.

Kremldə işlər idarəsinə yeni müdir təyinatı çox da rahatlıqla alınmayıb. Daha çox Çernenko bu vəzifəyə öz adamını təyin etmək istəyib. Andropov Çernenkoya mane olmaq istəməsə də, sonda Qorbaşovun namizədi ilə razılaşıb. Qorbaçov öz xatirələrində bu təyinatı belə xatırlayıb:

***"Pavlovun vəzifədən götürülməyi qaçılmaz idi. Onun adı partiyanın pullarının mənimsənilməsində hallanırdı və bu şəxs Brejnevin kassiri kimi tanınırdı. Buna baxmayaraq, Andropov onu çox böyük hörmətlə yola saldı. Yeni təyinat məsələsində isə fikir ayrılığı var idi. Çernenko bu vəzifədə öz adamını görmək istəyirdi. Amma mən buna yol vermədim. Nikolay Kruçina olduqca təmiz, təşəbbüskar, bacarıqlı bir adam idi. Mən ona inanırdım. Təkid etdim ki, işlər idarəsinə müdir o təyin olunsun. Andropov razılaşdı..."***

Beləliklə, Nikolay Kruçina 1983-cü ildə Mərkəzi Komitənin işlər idarəsinin müdiri vəzifəsinə təyin olunub.

Onun bu vəzifəyə təyinatı ilə Kremlin və onun məmurlarının təminatında çox şeylər dəyişib. Hətta Kreml yeməkxanasının zəngin menyusunda ciddi ixtisarlar edilib.

Kruçina israfçılığa qarşı ciddi mübarizə aparıb. Qorbaçovla yaxın münasibətdə olsa da, onun baş katib olduğu dövrdə Raisa Qorbaçovaya qarşı *"maliyyə sanksiyası"* tətbiq etməkdən çəkinməyib və günlərin birində nümayişkarcasına birinci ledinin köməkçisinə öz etirazını bildirib: ***"Mənim bu lüzumsuz tədbirlərə ayırmağa pulum yoxdur..."***

Amma bütün bunlar hadisələrin görünən tərəfidir. Bir çox araşdırmaçıların qənaətinə görə, dünyanın müxtəlif məkanlarında Qorbaçova məxsus iqamətgahlar məhz Kruçinanın əli ilə partiyanın pulları hesabına alınıb.

26 avqust 1991-ci ildə Nikolay Kruçina Arbat yaxınlığında yerləşən, Mərkəzi Komitənin işçiləri üçün nəzərdə tutulmuş binadakı 5-ci mərtəbədəki mənzilinin eyvanından özünü ataraq intihar edib. Yuxarıda qeyd etdiyimiz kimi, istintaq orqanları onun qeydlərini əsas götürərək hadisəni intihar kimi qiymətləndiriblər. Amma bəzi versiyalara görə, Nikolay Kruçina özünü eyvandan atmağa məcbur edilib. Bu versiyanı söyləyənlərdən biri də müdafiə naziri Dmitri Yazov olub.

Kruçinanın intiharını təbii sayanlar da olub. Belə ki, SSRİ-nin son dövrlərində partiyanın xəzinəsinin dağıdılmasında onun da adı hallanıb. Çünki partiyanın pullarına birbaşa işlər idarəsi nəzarət edib. Məsələ burasındadır ki, Kruçinanın intiharından 40 gün sonra onun sələfi Pavlov da özünü eyvandan ataraq intihar edib. Müəmmalı ölümlərin səbəbi bütün variantlarda partiyanın milyonları ilə bağlı olub. Kimisi yeyib və bu günə qədər də yaşayır, kimisi isə bu pullara görə həyatını yarımçıq qoyub.

Qeyd edək ki, Nikolay Kruçina *"intihar"* edəndə 63 yaşında olub. O, Moskvada, Troekurovsk qəbiristanlığında dəfn edilib.

# Alman liderə sosis, İran şahına piti bişirən aşpaz

## Bondaryov dövlət başçılarıyla 36 ölkəyə gedib

**12 il ərzində onun harada işlədiyini heç ailə üvləri də bilməyib. Vladimir Bondaryova DTK mundirini evdə saxlamağa da icazə verməyiblər. Yaxın ətrafı onun Moskvanın mərkəzində yerləşən kafelərin birində aşpaz işlədiyini düşünüb. Əslində Bondaryov 1969-cu ilə qədər həqiqətən də "Buxarest" restoranında işləyib, peşəkar aşpaz kimi tanınıb.**

22 yaşında Kommunist partiyasına üzv olan Bondaryov 1969-cu ildə DTK-ya çağrılıb. Onu DTK-nın 9-cu idarəsinin 6-cı şöbəsinin rəisi polkovnik Gennadi Kolomentsev qəbul edib. Görüşdə Bondaryova Kremlin xüsusi mətbəxində işləmək təklif olunub. Bu mətbəxdə və Kremlin ərzaq anbarında işləyənlərin hamısı məhz 6-cı şöbənin *"poqon"*lu əməkdaşları olublar.

Beləliklə, xüsusi təlimat alan Bondaryov serjant rütbəsində Kremin mətbəxində xidmətə başlayıb. Tam məxfilik şəraitində işləyən Bondaryov 12 illik xidmətində maraqlı hadisələrlə tez-tez qarşılaşıb.

SSRİ-nin süqutundan sonra mətbuata verdiyi müsahibələrdə Bondaryov birincilərin kaprizləri, xidmət personalına qarşı münasibətləri, xarici ölkələrin dövlət başçılarının SSRİ-yə səfəri zamanı onların şərəfinə verilən ziyafətlər haqqında maraqlı açıqlamalar verib:

*"Televiziyada və qəzetlərdə çox sadə və səmimi görünən dövlət məmurlarının hər birinin özünəməxsus kaprizləri var idi. Bu kaprizləri təmin etmək üçün bütöv bir aşpaz briqadası gecə-gündüz çalışırdı. Bəzən elə olurdu ki, ən adi bir şeyə görə üzümüz danlanırdı. Yaxşı xatırlayıram, 1971-ci ilin qarlı qış günlərindən biri idi. Axşamdan xeyli keçmiş marşal Qreçko Kremlin yeməkxanasına gəldi. Xidmətçi ona yaxınlaşaraq nə arzuladığını soruşdu. Həmin gün mən mətbəxdə növbətçi idim. Qreçko qayğanaq sifariş etdi. Masanın arxasında tək əyləşmişdi. Mən dərhal marşalın sifarişini hazırladım. Yemək süfrəyə qoyulanda Qreçko yüksək səs tonu ilə xidmətçiyə əmr etdi ki, aşpazı çağırsın. Mən ona yaxınlaşıb özümü təqdim etmək istəyəndə sözümü yarımçıq qoydu:*

*- Bunu sən hazırlamısan?*

*- Bəli.*

*- Yox, mən belə qayğanaq istəmirəm.*

*Nə isə deməyə çətinlik çəkirdim. Çünki bu sadə yeməyin başqa cür hazırlamaq qaydası və resepti yox idi. Nəhayət, Qreçko nə istədiyini də bildirdi:*

*- Mənə ötən bazar günü Brejnevin bağ evində bişirdiyiniz qayğanaqdan gətirin.*

*Mən "baş üstə" deyib mətbəxə qayıtdım. Tez-tələsik bazar günü Brejnevin bağ evində işləyən aşpaza zəng vurdum. Bəxtimdən telefonu özü götürdü. Qayğanağı necə hazırladığını soruşdum. Bir cümlə ilə başa saldı ki, marşal bərli-bəzəkli qayğanaq xoşlamır, yəni, xüsusi tavada hazırlanmış, üzərinə bir cəfəri göyərtisi qoyulmuş, yumurtaların sarısı simmetrik yerləşdirilmiş qayğanağı o bəyənmir və mənə anlatdı ki, qayğanağı kənd variantında bişirim, yumurtaları çalıb tavada qızardıb qoyum qabağına. Dediyi kimi edib qayğanağı marşalın qarşısına qoyduq. Marşal məmnunluğunu bildirdi və razı qaldı. Qreçko sərt adam olsa da əliaçıq idi. Xüsusilə 23 fevralda, sovet ordusu və hərbi dəniz donanması günü ilə bağlı Kremldə tədbir keçiriləndə mətbəxə gəlirdi, həmin gün növbədə olan bütün aşpazlara 50 rubl pul verirdi. Hədiyyə məsələsində birincilərin həyat yoldaşları daha səxavətli idilər. Adətən bir çox bayram tədbirlərində onlar da həyat yoldaşları ilə bərabər ziyafətdə iştirak edirdilər. Bu ziyafətlər zamanı onların əksəri mətbəxə də keçirdilər. Elə Kreml mətbəxində də özlərini ev sahibəsi kimi aparan bu xanımlar bizi hədiyyəsiz qoymurdular..."*

Kremlin xüsusi mətbəxində xidmət etdiyi 12 il ərzində Bondaryov xaricə səfər edən Siyasi Büronun üzvləri ilə 36 ölkədə olub. Xarici səfərlərdə işin o qədər çətin olmadığını söyləyən aşpaz bildirib ki, xaricdən dövlət başçıları SSRİ-yə səfər edəndə iş daha ağır olub: *"Xaricdən SSRİ-yə rəsmi səfərə gələn dövlət başçılarına qulluq daha çətin idi. Çətinliklərdən biri ondan ibarət idi ki, menyu seçimində çox fikirləşməli olurduq. Bu işdə bizə bəzən Kreml məmurları da kömək edirdilər. Almaniya Vahid Sosialist Partiyasının baş katibi Erik Honekkerin Moskvaya səfəri zamanı menyu seçimində çətinlik çəkəndə bizə Suslov kömək etdi. Suslov təklif etdi ki, menyunun əsas yeməyi buğda bişirilmiş kələmlə sosiska olsun. Bir aşpaz kimi bu təklif mənim üçün o qədər də maraqlı gəlmədi. Amma sonra gördəndə ki, Almaniya lideri, nümayəndə heyəti, mühafizəçilər kələmlə sosiskanı necə iştahla yeyirlər, Suslovun yemək zövqünə ürəyimdə "əhsən" dedim.*



*İran şahı Məhəmməd Rza Pəhləvinin SSRİ-yə səfəri zamanı da menyu problemi ilə üzləşmişdik. Bu dəfə seçimdə təşəbbüskar mən oldum. İranlı qonağa qatı sousda noxudlu və qoyun əti ilə yemək hazırladım. Bu yeməyin adı piti idi. Ziyafətdən sonra Pəhləvi yeməyi kimin bişirdiyi ilə maraqlandı. Məni ona təqdim etdilər. Şah xüsusi minnətdarlığını bildirdi və köməkçisinə tapşırdı ki, mənə İrandan gətirdikləri xəzi hədiyyə etsinlər..."*

Vladimir Bondaryov 1981-ci ildə DTK orqanlarından tərxis olunub. Sonrakı fəaliyyətini mülki şəxs kimi Kremlin qurultaylar sarayının yeməkxanasında davam etdirib.

**Təqdim edən: İlham Cəmiloğlu**

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 050 (3618) 2 fevral 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




## Qışda içkilərə ədviyyat qatmaq çox faydalıdır

Diyetoloq Anton Brıkinin sözlərinə görə qışda darçın, zəncəfil, hil əlavə edilmiş içkiləri qəbul etmək çox faydalıdır. Darçının tərkibində mikrob və iltihab əleyhinə xüsusiyyətlərə malik aldeqid maddəsi var. Ədviyyatda olan antioksidantlar hüceyrələrin vaxtından əvvəl məhv edilməsinin qarşısını alır.

Darçın şəkərli diabet olan insanlara faydalıdır: o içkilərə və yeməklərə gözəl dad verir, lakin qanda şəkərin artmasına səbəb olmur.

Öz növbəsində, zəncəfilli çay qışda istiləşməyə kömək edir, həzm pozuntularının qarşısını alır. Bundan əlavə, zəncəfil iltihab əleyhinə, antiseptik effektinə malikdir, orqanizmi piyləri parçalayan fermentləri daha fəal istehsal etməyə təşviq edir.

Həmçinin qışda içkilərə hil əlavə etmək çox faydalıdır. İçkilərlə yanaşı, hil şorba, tərəvəz, ət yeməklərinə də əlavə edilir. Bu ədviyyat orqanizmi doymamış yağ turşuları, askorbin turşusu, B6 vitamini, maqnezium, dəmir, kalsium, fosfor, sink ilə təmin edir.

Hil qan təzyiqinin bərpasına kömək edir, maddələr mübadiləsini normallaşdırır, həzm və əsəb sisteminin işini yaxşılaşdırır.

Mütəxəssislərin sözlərinə görə, ədviyyatlardan ciddi şəkildə uyğun miqdarda istifadə etmək çox vacibdir.

# Qışda dəriyə qulluq qaydaları

**Sağlamlıq dəridən başlayır. Ona görə də fəsildən asılı olmayaraq onun təravətli və gözəl görünməsinə çalışmaq lazımdır. Qış aylarında dərinin quruması hər kəsin üzləşdiyi problem ola bilər. Dəri quruluğunun müxtəlif səbəblərdən yaranması mümkündür.**

Dərinin qurumaması üçün görülməli tədbirlərdən bəhs edən kosmetoloq Zəhra Mütəllibova deyib: *“Qış aylarında dəri mütləq nəm saxlanılmalıdır. Bu, həm yağlı, həm quru, həm də həssas dərilərə aiddir. Dəri üzərində SPF kremlərlə qoruyucu qat yaratmaq lazımdır. Həmin krem yay fəslində Günəş şüalarından qorumaqla yanaşı,*



*qış fəslində də dəridə qoruyucu qat yaradır. Bu sahədə olan yanlışlıqlardan biri də isti duş qəbuludur. İsti duş dəridə olan quruluğu daha da qabardır”.*

Onun dediyinə görə, təkcə üz dərisi deyil, orqanizmin xarici mühitlə təmasda olan əl və saç dərisi də quruya bilər. Ona görə də nəmləndirici kremdən istifadə etmək çox vacibdir.

Qışda ev şəraitində dəriyə qulluq etmək qaydaları barədə danışan kosmetoloq sadə bir resept də təklif edib: *“Bir ədəd alma rəndələnir, onun üzərinə bir xörək qaşığı kəsmik əlavə edilib qarışdırılır, üzə maska çəkilərək 15-20 dəqiqə saxlanılandan sonra soyuq su ilə yuyulur”.*

# Yuxuda apnoe sindromu

**Yuxuda apnoe sindromu - 10 saniyədən çox çəkən daima güclü xoruldama və kəskin ifadə olunan gündüz yuxululuğu ilə müşayiət olunan tez-tez atılmalarla birgə periodik baş verən tənəffüs dayanmasıdır.**

Etiologiya və patogenez:

YMA sindromu üçün tənəffüs hərəkətlərinin və burun udlaqdan hava axınının olmaması xarakterikdir. Bu qrupa xas tənəffüsünün requlyasiyasının mərkəzi mexanizminin pozğunluğunun nəticəsi hesab olunan xəstəliklər daxildir: beynin işemik, iltihabi, alkohol, atrofik, medikamentoz zədələnmələri, Alsgeymer - Pik xəstəliyində beynin zədələnməsi, postensefalik parkinsonizm.

Yuxuda obstruktib apnoe sindromunda hava axını periodik tam kəsilir, lakin qarının ön divarı və döş qəfəsinin tənəffüs ekskursiyası saxlanılır.

Yuxuda obstruktiv apnoenin əsas səbəbləri aşağıdakılardır:

*- udlaq dilatatoru, udlağın, dilin obduktoruntonusunun azalması ilə bağlı kollapsı ilə şərtlənən pozulması*

*-havadaşıyıcı yolların daralmasına gətirib çıxaran patoloji vəziyyətlər*

*- faringial limfoid toxumanın böyüməsi*



*-boynun yumşaq toxumasının ödemli iltihabi prosesləri.*

Klinik şəkli və diaqnostikası:

Yuxuda apnoe sindromundan əziyyət çəkən xəstələrin şikayəti xarakterik olur - yuxudan ayılanda gümrahlıq hissinin olmaması, gün ərzində daimi yorğunluq, yuxululuq, səhərlər baş ağrıları, gün ərzində boyun nahiyəsində ağrılar, cinsi hissin azalması, cinsi zəiflik, xarakter gecə şikayətləri - güclü xorultu, yuxuda artmış hərəki aktivlik, yuxuda dişlərin qıcanması, yuxuda danışma, tez - tez oyanma, hətta bəzi xəstələrdə gecə sidiyi saxlaya bilməmək müşahidə olunur.

Gecə apnoe epizodları zamanı taxikardiya, mədəcik və supraventrikulyar ekstrasistoliyalar müşahidə olunur. Bir sıra xəstələrdə yuxuda apnoe epizodu zamanı miokard infarktı, insult inkişaf etməsi, qəfləti ölümün mümkünlüyü də müşahidə edilmişdir.

Müalicə:

*1. Mərkəzi apnoedə müalicə tənəffüs stimulyatorlarının qəbuluna əsaslanır.*

*2. Obstruktiv apnoedə obstruksiya səbəbinin aradan qaldırılması vacib şərtdir.*



## Nigeriya ”Starlink”ə qoşulub

**”SpaceX” şirkəti Nigeriyanın ”Starlink” internet xidmətlərinə çıxışını təmin edib.**

Bu barədə *"SpaceX"* şirkətinin *"Twitter"* hesabında məlumat verilib.

Bildirilir ki, Nigeriya Afrika qitəsində şirkətin xidmətlərindən istifadə edəcək ilk ölkə olub.

Qeyd edək ki, *"Starlink"* şəbəkəsi 260 kq ağırlığında çoxlu sayda cihazları yerləşdirməklə İnternetə çıxışı təmin etmək üçün nəzərdə tutulub. *"SpaceX"* hesab edir ki, cəmi 11 min peykin orbitə buraxılması və istismara verilməsi 10 milyard dollara başa gələcək. Şirkətdən verilən məlumata görə, o, 5G standartına uyğun gələn 1 gb/s sürətlə genişzolaqlı internetə çıxışı təmin edə biləcək. 2019-cu ilin may ayından etibarən *"SpaceX"* 3200-dən çox *"Starlink"* peykini orbitə çıxarıb.


*Təsisçi:*
**Tapdıq Abbas**

*Baş redaktor:*
**Akif Nəsirli**

*Birinci müavin:*
**Şahnaz Salehqızı**

*İnformasiya şöbəsinin müdiri:*
**Röyal Əsədli**

*Bölgə müxbirləri:*
**Vaqif Cəmiloğlu**
**Sadıq Sadıqlı**
**İqbal Məmmədov**
**Əlizadə Nəhmədağaoğlu**
**İlkin Əsədzadə**

*Qəzet 16 fevral 2003-ci ildən çıxır.*
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə “Azərbaycan” nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**